QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 002 (6202) 7 yanvar 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# “Bizim şanlı Qələbəmiz bizim güclü iradəmizi, xalqımızın güclü əzmini bütün dünyaya nümayiş etdirdi”

*Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirə keçirilib*

Bax 2



## Dünya Bankı: 2022-ci ildə Azərbaycanda ÜDM 4,5 faiz artacaq

2021-ci ildə Azərbaycan iqtisadiyyatının 1,9 faiz səviyyədə inkişaf edəcəyi gözlənilir. SİA-nın verdiyi məlumata görə, bu barədə Dünya Bankının (WB) yaydığı məlumatda deyilir. “COVID-19” peyvəndinin buraxılması üçün ilkin səylərin il ərzində geniş miqyas alması şərti ilə, 2021-ci ildə dünya iqtisadiyyatının 4 faiz artacağı gözlənilir” - sənəddə deyilir.




## Bölgədəki vəziyyəti gərginləşdirmək cəhdləri Ermənistana fəlakət vəd edir

Bax 7



Ermənistanın xarici işlər naziri Ara Ayvazyanın Azərbaycanın Qarabağ bölgəsinə qanunsuz səfəri, burada qondarma qurumun nümayəndələri ilə görüşlər keçirməsi və “sənədlər” imzalaması erməni quldur dəstələrinin...

## “YAŞAT” Fondu 1472 şəhidin ailə üzvünə ödənişlər həyata keçirməyə başlayıb

*“YAŞAT” Fondunun əməkdaşları ərazi bütövlüyümüzün bərpası uğrunda yaralananların və şəhid ailələrinin yaşadıqları ünvanlarına üz tutmaqla bərabər, bu kateqoriyadan olan şəxslərin...*

Bax 11



## Armen Sarkisyan korona deyil, Livana Elton Conla kefə gedibmiş...

*Ermənistan prezidenti Armen Sarkisyanın “koronavirusa yoluxaraq özünütəcrid vəziyyətinə keçməsi” informasiyası ictimailəşdirildikdən sonra məlum oldu ki, demə o, Livana gedərək, orada İsa Məsihin mövlud bayramını keçirmək niyyətindədir. Özü də Britaniyanın erməni mənşəli milyarderi...*

Bax 14



## Türkiyə mediası: İşğaldan azad edilən Şuşa Azərbaycan mədəniyyətinin paytaxtı elan olundu




Prezident İlham Əliyevin Qafqazın incisi sayılan Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan etməsi Türkiyə kütləvi informasiya vasitələri tərəfindən mühüm xəbər kimi ictimaiyyətə təqdim olunub.

Bax 2

## Dünyanın mədəniyyət paytaxtı olmağa layiq olan ŞUŞA

*Prezident İlham Əliyevin Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan etməsi mənim üçün bir dünya oldu, çox sevindim. Sanki, Prezidentimiz canım Şuşamın dəyərini, qiymətini bütün dünyaya bir daha bəyan etmiş oldu...*



Bax 8

## KİVDF: Qəzet redaksiyalarına 2021-ci ilin I yarısı üçün maliyyə yardımının göstərilməsi ilə bağlı müsabiqə yekunlaşıb




Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 31 iyul tarixli 2957 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kütləvi informasiya...

Bax 11

## İctimai nəqliyyatda gedişhaqları artmayacaq




Bax 11

## Dövlət Xidməti: Əsassız qiymət artımına qarşı nəzarət gücləndirilir



Bax 13

## Peskov: “Putinin Qarabağda etdiyi sülh, barış üçündür”



Bax 5

## Mesut Özil “Fənərbağça” ilə anlaşıb




Bax 16

# "Bizim şanlı Qələbəmiz bizim güclü iradəmizi, xalqımızın güclü əzmini bütün dünyaya nümayiş etdirdi"

*Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirə keçirilib*

***Yanvarın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirə keçirilib.***

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev müşavirədə çıxış edib. Dövlətimizin başçısı bildirib ki, 2020-ci ilin əsas yekunu torpaqlarımızın işğaldan azad olunmasıdır. Azərbaycan 44 gün ərzində tarixi qələbə qazanaraq öz torpaqlarını azad edib, düşmənə sarsıdıcı zərbələr endirib və Ermənistanı məğlub edib.



*"Tarixdə ilk dəfə olaraq Azərbaycan qazı artıq Avropa məkanındadır. Bu, bizim tarixi nailiyyətimizdir"*

"Bizim şanlı Qələbəmiz bizim güclü iradəmizi, xalqımızın güclü əzmini bütün dünyaya nümayiş etdirdi", - deyən Prezident İlham Əliyev vurğulayıb ki, bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur və Azərbaycan siyasi, iqtisadi, hərbi gücü sayəsində qarşıda duran əsas vəzifəni şərəflə yerinə yetirib.

2020-ci ildə ölkəmizdə parlament seçkilərinin keçirildiyini, siyasi partiyalarla dialoqun gücləndiyini, kadr islahatlarının davam etdirildiyini deyən Prezident İlham Əliyev pandemiyanın fəsadlarının aradan qaldırılması istiqamətində görülən işlərdən danışıb.

Dövlətimizin başçısı diqqətə çatdırıb ki, ötən il iqtisadiyyat 4 faizdən bir qədər çox azalsa da, qeyri-neft sənayemiz 11 faizdən çox artıb. Bundan əlavə, kənd təsərrüfatı, orta aylıq əməkhaqqı və pensiyalar da artıb, Neft Fondunun vəsaiti azalmayıb, əksinə, o da artıb. Bununla da Azərbaycan öz valyuta ehtiyatlarını qoruyub.

İlin sonunda, dekabrın 31-də daha bir şad xəbərin gəldiyini vurğulayan Prezident İlham Əliyev deyib ki, Cənub Qaz Dəhlizi, onun son seqmenti olan TAP tam istismara verilib. Tarixdə ilk dəfə olaraq Azərbaycan qazı artıq Avropa məkanındadır. Bu, bizim tarixi nailiyyətimizdir.

Prezident İlham Əliyev beynəlxalq qurumların ölkəmizdə gedən işlərə yüksək qiymət verdiyini, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycanın reytinqinin artdığını, 190 ölkə arasında 28-ci yerdə qərarlaşdığını və 10 ən islahatçı ölkə sırasına daxil edildiyini bildirib. Dövlətimizin başçısı Davos Dünya İqtisadi Forumunun hesabatında Azərbaycanla bağlı uğurları da sadalayıb. Prezident İlham Əliyev işğaldan azad olunan torpaqlarda bu il geniş quruculuq işlərinin aparılacağını vurğulayıb, bununla bağlı tapşırıqlarını verib. Müşavirədə məruzələr dinlənilib.

# Türkiyə mediası: İşğaldan azad edilən Şuşa Azərbaycan mədəniyyətinin paytaxtı elan olundu







Prezident İlham Əliyevin Qafqazın incisi sayılan Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan etməsi Türkiyə kütləvi informasiya vasitələri tərəfindən mühüm xəbər kimi ictimaiyyətə təqdim olunub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısının bu qərarı, onsuz da qardaş ölkə mediasında ən aktual mövzu kimi qalmaqda olan 44 günlük şərəfli Vətən müharibəsi mövzusunu yenidən canlandırıb.

TRT Haber kanalı "Şuşa Azərbaycan mədəniyyətinin paytaxtı elan edildi" sərlövhəsi ilə xüsusi reportaj yayıb. Reportajda Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın hərtərəfli inkişafı, o cümlədən böyük peşəkarlıqla qurulan yenilməz Ordumuzun qazandığı müzəffər zəfərdən bəhs edilib.







Anadolu və İHA xəbər agentlikləri, Haber Global telekanalı, "Yeni şəfəq" və "Sabah" qəzetləri, və s. nüfuzlu media orqanları da mövzu ilə bağlı geniş məlumat yayıblar.

Türkiyə mediası tərəfindən Prezident İlham Əliyevin yanvarın 5-də Anar Kərimovu mədəniyyət naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul zamanı etdiyi dərin məzmunlu çıxışında səsləndirdiyi fikirlər, işğaldan azad olunan ərazilərdə bərpa işləri, o cümlədən Füzuli rayonunda hava limanının tikintisi və s. məsələlər barədə türkdilli ictimaiyyətə geniş məlumat verilib.

# Misir mətbuatı: "Prezident İlham Əliyev Şuşanı Azərbaycan mədəniyyətinin paytaxtı elan edib"




Misirin "Aldiplomasy" və "Əl Ğad" informasiya portallarında AZƏRTAC-ın xəbərinə istinadla Şuşa şəhərinin Azərbaycan mədəniyyətinin paytaxtı elan olunması haqqında məqalə yayılıb.

"Prezident İlham Əliyev Şuşanı Azərbaycan mədəniyyətinin paytaxtı elan edib" sərlövhəli məqalədə Azərbaycan Prezidentinin yanvarın 5-də etdiyi çıxışa geniş yer verilib. Yazıda Qarabağın incisi kimi təqdim edilən Şuşa şəhərinin 1992-ci ildə Ermənistan tərəfindən işğal edildiyi və ötən il noyabrın 8-də düşmən tapdağından azad olunduğu diqqətə çatdırılıb. Vurğulanıb ki, bu qədim şəhər Azərbaycan tarixində və mədəniyyətində rəmzi məna daşıyır, tanınmış azərbaycanlı musiqiçilərin və görkəmli elm-mədəniyyət xadimlərinin yurdudur.

Məqalədə erməni işğalı dövründə Şuşaya vurulmuş maddi-mənəvi ziyana diqqət çəkilib. Bu qədim şəhərin təkcə Azərbaycanın deyil, bütün regionun mədəniyyət mərkəzi olduğu bildirilib. Bununla bağlı Azərbaycan Prezidentinin fikirlərindən sitat gətirilən yazıda qeyd edilib ki, dövlət başçısı Şuşada yaşayış fondunun, tarixi abidələrin təftişinin aparılması, vurulmuş ziyanın dəqiq hesablanması və restavrasiya işlərinə başlanması barədə göstəriş verib. Prezident, eyni zamanda, şəhərin ilkin və tarixi simasının bərpa edilməli olduğunu da vurğulayıb.

Məqalənin sonunda diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev yeni təyin olunmuş mədəniyyət nazirinə Şuşa şəhərində musiqi festivalı və poeziya günlərinin keçirilməsinə dair tapşırıqlar verib.

# Prezidentə yazırlar: Ölkəmizin bütövlüyü uğrunda fədakar əməyinizə görə Sizi Azərbaycanın Milli Qəhrəmanı kimi görmək istəyirik



***Rəşadətli ordumuzun Vətən müharibəsində qazandığı tarixi Qələbə ilə əlaqədar Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq məktubları ünvanlamaqda davam edirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bəzilərini təqdim edir.***

"Bir Azərbaycan vətəndaşı olaraq fəxr edirəm ki, Sizin kimi Prezidentimiz var"

Bərdə rayonunun Hacallı kənd sakini Fariz Quliyev yazır: "Müzəffər Ali Baş Komandan İlham Əliyev,

Mən, Quliyev Fariz Əli oğlu Vətən müharibəsində xalqımıza yaşatdığınız Qələbəyə görə Sizə ailəm adından dərin təşəkkürümü bildirirəm.

Azərbaycan xalqı Sizin qayğınızı hər zaman öz üzərində hiss edir. Bizim kimi aztəminatlı ailələrə göstərdiyiniz diqqət və qayğıya görə Sizə ayrıca minnətdarlıq etmək istəyirəm. Bir Azərbaycan vətəndaşı olaraq fəxr edirəm ki, Sizin kimi Prezidentimiz var.

Sizə uzun ömür, cansağlığı arzulayıram!".

"Sizi Azərbaycanın bütövlüyü uğrunda fədakar əməyinizə görə Azərbaycanın Milli Qəhrəmanı kimi görmək istəyirik"

Kürdəmir rayonunun Xəlsə kənd sakini Altay Nuriyev:

"Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan,

Sizi tarixi Qələbəmiz münasibətilə təbrik edirik.

Unudulmaz ümummilli liderimiz Heydər Əliyevin davamçısı kimi xalqın böyük sevgisini qazanmısınız. Bu səbəbdən hamımız Sizi Azərbaycanın bütövlüyü uğrunda fədakar əməyinizə görə Azərbaycanın Milli Qəhrəmanı kimi görmək istəyirik.

Arzumuz Sizin adınızın tarixdə əbədi yaşamasıdır".

"Siz son 200 ilin ən şanlı zəfər tarixini yazdınız"

Şabran rayon sakini Sündüz Babayeva yazır:

"Hörmətli Prezident, böyük sərkərdə, Müzəffər Ali Baş Komandan,

Sizi böyük Qələbə, Zəfər bayramı münasibətilə təbrik edirəm. Sizi dahi şəxsiyyət, dünya şöhrətli siyasətçi kimi ulu öndərimiz Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirməklə Azərbaycan dövlətçiliyinə və xalqına əvəzsiz xidmətlər göstərdiniz. Son 200 ilin ən şanlı zəfər tarixini yazdınız. Ölkəmizin ərazi bütövlüyünü bərpa etdiniz.

Müzəffər Ali Baş Komandan, Siz 44 günlük müharibə ilə təkcə torpaqlarımızı işğaldan azad etmədiniz, həm də Azərbaycan xalqının tapdanmış qürurunu, mənəviyyatını özünə qaytardınız.

Siz uzaqgörən siyasətinizlə düşmənlərimizə və dünyaya diplomatiya dərsi verdiniz. Siz böyük sərkərdə olaraq dünya hərb tarixinə yeni səhifə yazdınız.

Azərbaycan dövləti və xalqı Sizi həmişə uca tutacaq, Sizin adınız əsrlərboyu yaşayacaq.

Ulu Öndərimiz 1993-cü ildə müstəqil dövlətimizi məhv olmaqdan xilas etdi. Dövlətçiliyimizi möhkəm təməllər üzərində qurdu, Siz isə onu daha da inkişaf etdirib Qələbəyə apardınız.

Bu gün Azərbaycan Sizin sayənizdə dünyada tanınan, hörmət edilən qüdrətli bir dövlətdir. Biz Sizinlə fəxr edirik. Siz "dəmir yumruğunuzla" düşmənin başını əzdiniz. Həm də bu dəmir yumruq dünya azərbaycanlılarını səfərbər edib birləşdirdi.

Cənab Prezident, mənim 75 yaşım var. Mən çox xoşbəxt insanam ki, o dəmir yumruğun barmaqları mənim sinəmə "Şöhrət" ordeni taxıb, necə ki, vaxtilə Ulu Öndərimizin mübarək əlləri sinəmə "Şərəf nişanı" ordenini taxmışdı.

Tarix sübut edib ki, hər əsrdə bir dahi şəxsiyyət yetişir. Azərbaycan xalqı xoşbəxtdir ki, son iki əsrdə Allah bizə iki dahi şəxsiyyət XX əsrdə ulu öndər Heydər Əliyevi, XXI əsrdə İlham Əliyevi bəxş edib. Siz bu xalqın, bu dövlətin xilaskarısınız. Siz bizim ömürlük Prezidentimizsiniz. Allah Sizi qorusun! Həmişə uca olun!

Siz Azərbaycan dövlətçiliyi, Azərbaycan xalqı üçün misli görünməmiş, əzəmətli bir qəhrəmanlıq səhifəsi yazdınız! Mən Ulu Öndərə, onun siyasi kursuna sadiq bir insan kimi təklif edirəm ki, Sizə Azərbaycanın Milli Qəhrəmanı adı verilsin və Siz ömürlük Prezident seçiləsiniz.

Mən əminəm ki, bu, bütün Azərbaycan xalqının arzusudur.

Böyük Yaradan Sizi, Mehriban xanımı və övladlarınızı hifz etsin. Dualarım həmişə Sizinlə olub və həmişə belə olacaq.

Qarabağ Azərbaycandır!".

"Bu qələbə Sizin uzaqgörən siyasətinizin nəticəsidir"

Qubadlı rayon sakini Ramiz İsmayılov:

"Müzəffər Ali Baş Komandan İlham Heydər oğlu Əliyev,

Qırx dörd günlük Vətən müharibəsində Zəfər qazanmağımız münasibətilə Sizi, müzəffər Ordumuzu, bütün Azərbaycan xalqını səmimi qəlbdən təbrik edirəm. Bu qələbə Sizin uzaqgörən siyasətinizin nəticəsidir.

Mən 1963-cü ildə Qubadlı rayonunun Mahruzlu kəndində dünyaya göz açmışam. Qətiyyətlə inanırdım ki, Sizin uzaqgörən siyasətiniz nəticəsində yenidən doğma el-obamıza qayıdacağıq. 58 yaşımın ən gözəl hədiyyəsi doğma Qubadlı torpağımın mənfur erməni daşnaqlarından azad olunması xəbəri oldu. Bundan gözəl hədiyyə ola bilməzdi. Bir Qubadlı sakini olaraq bu gün sevincimin həddi-hüdudu yoxdur.

Siz 30 il Azərbaycan xalqının qəlbində qaysaq bağlayan Qarabağ yarasını sağaltdınız, doğma Qarabağımıza bizi yenidən qovuşdurdunuz. Doğma torpağımıza qədəm basacağımız günü səbirsizliklə gözləyirik. Şanlı Qələbəmiz uğrunda canından keçən şəhidlərimizə Uca Allahdan rəhmət, qazilərimizə şəfa diləyirəm. Allah Sizi, bir yumruq kimi hər zaman Sizə dəstək olan Azərbaycan xalqını qorusun. Sizin kimi rəhbərimiz olduğu üçün çox şanslıyıq. Üçrəngli bayrağımız daim zirvələrdə dalğalansın. Zəfər bizə çox yaraşır. Zəfərlərimiz əbədi olsun.

Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan!".

"Sizin şücaətiniz ən yüksək fəxri ada layiqdir"

Şəki şəhər sakini Əbülfəs Hüseynov yazır:

"Hörmətli cənab Prezident,

Bu məktubu yazmaqda məqsədim Sizə şəxsən öz təşəkkürümü bildirməkdir.

Qurduğunuz və möhtəşəm silahlarla təchiz etdiyiniz güclü Ordu, yürütdüyünüz müdrik daxili və xarici siyasət sayəsində əsarət altında qalan torpaqlarımızı azad etməyiniz böyük tarixi hadisədir. Qələbə münasibətilə keçirilən Zəfər paradının görüntülərini, qəhrəman şəhidlərimizə və qazilərimizə, əsgərlərimizə verdiyiniz dəyəri görüb-eşitdikcə qürurlanır və qəhərlənirəm. Bu etdiklərinizin qarşısında Sizə necə təşəkkür edəcəyimi bilmirəm.

Sizin şücaətiniz ən yüksək fəxri ada, ən yüksək orden və medala layiqdir. Müharibə udmuş Sərkərdə olaraq Sizə ən layiqli təltiflər arzulayıram.

"Xalqımız öz Milli Qəhrəmanı ilə fəxr edir"

Şirvan şəhər sakini Məhəmməd Hacıyev:

"Hörmətli və əziz Prezident, Müzəffər Ali Baş Komandan,

Sizi şanlı qələbəmiz münasibətilə ürəkdən təbrik edir, Sizə uzun ömür, cansağlığı, şərəfli işinizdə müvəffəqiyyətlər arzulayıram. Ulu Tanrı daim köməyiniz olsun.

Bir azərbaycanlı kimi keçirdiyim qürur hissi ölçüyəgəlməzdir. Belə hissləri daha əvvəl - ulu öndərimiz Heydər Əliyev Moskvada yüksək vəzifəyə təyin olunanda keçirmişdim, onda da sevincimin həddi-hüdudu yox idi.

Yenidən həmin hissləri bizə yaşatdığınız üçün Sizinlə fəxr edirik. Xalqımız öz Milli Qəhrəmanı ilə fəxr edir və Sizi çox sevir. Mən Birinci Qarabağ müharibəsinin iştirakçısıyam, II qrup əliləm. Vətən müharibəsində Qələbə sevincinə görə Sizə təşəkkürümü bildirir, ailəmiz adından yeni nailiyyətlər arzulayıram.

Ardı Səh. 4

# Prezidentə yazırlar: Ölkəmizin bütövlüyü uğrunda fədakar əməyinizə görə Sizi Azərbaycanın Milli Qəhrəmanı kimi görmək istəyirik

Əvvəli-Səh-3

Yolunuz daim açıq və uğurlu olsun!".

"Məhz Sizin sayənizdə rəşadətli ordumuz bu gün bütün dünyaya

öz qüdrətini, qüvvətini göstərdi"

Gəncə şəhər sakini Firuzə Cəfərova yazır: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan,

Məktubuma ulu öndər Heydər Əliyevin sözləri ilə başlamaq istəyirəm: "Mən fəxr edirəm ki, azərbaycanlıyam!" Bu gün isə həm də özümü xoşbəxt hiss edirəm ki, bizim Sizin kimi güclü, savadlı, uzaqgörən, bütün dünyada öz sözünü deməyi bacaran, hər dəqiqə xalqını, millətini düşünən Prezidentimiz var. Məhz Sizin sayənizdə rəşadətli ordumuz bu gün bütün dünyaya öz qüdrətini, qüvvətini göstərdi.

Mən bu gün fəxr edirəm ki, şəhid Röyalın həyat yoldaşıyam. Cəmi 4 il birgə ailə həyatı sürsək də mən onun Vətənə, torpağa, xalqa olan sevgisinin canlı şahidi oldum. O, müharibənin ilk günündən cəbhəyə yollandı, qələbəyə isə bütün varlığı ilə inanırdı.

Röyal şəhidliyi ilə Qələbə sevincini bizə və Azərbaycan xalqına yaşatdı. Mən də söz verirəm ki, övladlarımı ataları kimi vətənpərvər və cəsur böyüdəcəyəm, onların Vətənə xeyirli övlad olmaları üçün əlimdən gələni əsirgəməyəcəyəm.

Var olsun Azərbaycan!

Var olsun şəhid ailələrindən diqqət və qayğısını əsirgəməyən Ali Baş Komandanımız! Sizə və ailənizə uzun ömür, cansağlığı arzu edirəm. Allah Sizi qorusun!".

"İndiki nəsillər xoşbəxtdir ki, bu şərəf və ləyaqət tarixinin

şahidləridir və onun sevincini yaşayırlar"

Qusar rayon sakini Əmirbəy Aslanov:

"Möhtərəm cənab Prezident,

Ali rəhbərliyiniz altında şanlı Azərbaycan Ordusunun zəfər yürüşü və düşmənin öz məğlubiyyətini etiraf etməsi Azərbaycan xalqına və üreyi Azərbaycanla döyünən hər kəsə böyük sevinc, fərəh və qürur hissi bəxş etmişdir.

Sentyabrın 27-dən etibarən Azərbaycanın həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatlarının zəfər xəbərləri yayıldıqca doğma Qarabağın azadlığa qovuşacağı Qələbə gününün sürətlə yaxınlaşdığına hər birimiz daha dərindən inanır və həmin günü səbirsizliklə gözləyirdik.

Azərbaycan xalqının möhtəşəm Qələbəsi onun tarixinin şanlı səhifəsi, unudulmaz anlarıdır. İndiki nəsillər xoşbəxtdir ki, bu şərəf və ləyaqət tarixinin şahidləridir və onun sevincini yaşayırlar. Qazandığımız Qələbə doğma Qarabağı azad, ölkəmizin ərazi bütövlüyünü təmin etməklə yanaşı, xalqımızın qürur və əzəmətini daha da artırdı, dövlətimizin hörmət və nüfuzunu qat-qat yüksəltmiş oldu. Vətən müharibəsində qazandığımız tarixi Qələbə ulu öndər Heydər Əliyev yoluna sadiq lider kimi Sizin müdrik, uzaqgörən, ardıcıl və prinsipial daxili və xarici siyasətinizin məntiqi nəticəsidir.

Döyüş meydanında qazanılan hər bir tarixi Qələbənin əsasında lider amili dayanır. Həqiqət ondan ibarətdir ki, Siz ümummilli lider, müdrik dövlət başçısı Heydər Əliyevin siyasi varisi kimi zəngin təcrübəyə və yüksək şəxsi keyfiyyətlərə sahibsiniz.

Azərbaycan xalqı arasında və dünyada böyük nüfuzunuz doğma Qarabağ uğrunda savaşda qələbələrimizin əsas şərti olmuşdur. Azərbaycanın üçrəngli Bayrağının tezliklə işğal olunmuş torpaqlarımızda, Qarabağda dalğandırılacağı barədə verdiyiniz vədləri şərəflə yerinə yetirməyiniz Ulu Öndərimizin və Azərbaycan xalqının Sizə olan böyük etimadının nə qədər dərin köklərə malik olmasından xəbər verir.

***Müzəffər Azərbaycan Ordusunun zəfər yürüşü, düşmənin sonadək bütün torpaqlarımızdan qovulması, Qarabağın işğaldan tam azad edilməsi, uzun illər düyünə düşmüş və region üçün təhlükə mənbəyi olan Dağlıq Qarabağ münaqişəsinin uğurla və ədalətlə həll edilməsi həm də yaşadığımız bölgədə sülhə və təhlükəsizliyə əvəzsiz töhfədir.***

Müzəffər Azərbaycan Ordusunun zəfər yürüşü, düşmənin sonadək bütün torpaqlarımızdan qovulması, Qarabağın işğaldan tam azad edilməsi, uzun illər düyünə düşmüş və region üçün təhlükə mənbəyi olan Dağlıq Qarabağ münaqişəsinin uğurla və ədalətlə həll edilməsi həm də yaşadığımız bölgədə sülhə və təhlükəsizliyə əvəzsiz töhfədir.

Cənab Prezident, müqəddəs torpaqlarımız uğrunda Vətən müharibəsində qazandığımız şanlı Qələbənin müəllifi də, ilham mənbəyi də Sizsiniz. Bu Qələbənin memarı Sizsiniz. Siz Azərbaycanın yeni tarixini yazdınız. Tarix də Sizin adınızı öz şərəf səhifəsinə qızıl hərflərlə həkk etdi.

Cənab Prezident, Müzəffər Ali Baş Komandan Sizi Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmış Qələbə münasibətilə çoxsaylı Qusar rayon ictimaiyyəti adından təbrik edir, Sizə uzun ömür, cansağlığı, ailənizlə birlikdə xoşbəxt, firavan həyat arzulayırıq.

Qusarlılar doğma Azərbaycanımızın daha da inkişaf edib çiçəklənməsi yolunda Sizin ən etibarlı silahdaşlarınızdır.

Tanrı Sizi və Azərbaycanı qorusun!".

"Bundan sonra da birlikdə Azərbaycan naminə işlərimizi davam etdirəcəyik"

Gürcüstanın Qardabani şəhərindən Aygül İsayeva:

"Möhtərəm cənab Prezident.

Qarabağımızı işğaldan azad etməklə 2020-ci ili tarixin ən gözəl ili etdiyiniz, Azərbaycanı qalib, regionda lider dövlətə çevirdiyiniz, həmçinin dünya azərbaycanlılarına zəfər yaşatdığınız üçün Sizə dərin minnətdarlığımı bildirmək istərdim.

Gürcüstan azərbaycanlıları 44 gün ərzində Sizdən kənd, rayon və şəhərlərimizin bir-bir azad edilməsi müjdəsini böyük həyəcan və sevinc göz yaşları içərisində qarşılayırdı.

Sizin göstərişinizə əsasən Azərbaycan Respublikasının Diaspora İş üzrə Dövlət Komitəsinin tərəfindən Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması, Azərbaycan dilinin və mədəniyyətinin xarici ölkələrdə təbliğinə görə "Diaspor fəaliyyətində xidmətə görə" medalı ilə təltif edildim.

Sizin bu diqqət və qayğınızı ürəkdən alqışlayırıq. Sizi əmin edirik ki, bundan sonra da birlikdə və böyük əzmlə Azərbaycan naminə mənəvi borc hesab etdiyimiz işlərimizi davam etdirəcəyik.

Sizə bir daha dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıları, xüsusilə də Gürcüstan azərbaycanlılarını daim diqqətinizdə saxladığınıza görə səmimi qəlbdən təşəkkür edirəm, möhkəm cansağlığı arzu edirəm".

"Sizin fəaliyyətiniz Azərbaycanın daha böyük tərəqqi əldə etməsinə şərait yaradacaqdır"

Amerika Birləşmiş Ştatlarının Çikaqo şəhərindən Fərid Məmmədov:

"Hörmətli cənab Prezident.

Mən ABŞ-ın İllinoys ştatının Çikaqo şəhərində 2015-ci ildən fəaliyyət göstərən Amerikanın Orta Qərb Ştatları üzrə Azərbaycan Mərkəzi adlı təşkilatın rəhbəriyəm.

Bu il dekabrın 28-də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Azərbaycan diasporunun fəal üzvləri "Diaspor fəaliyyətində xidmətə görə" Azərbaycan Respublikasının medalı ilə təltif edilmişdir. Bu diqqət və dəyərə görə, ilk növbədə, Sizə dərin təşəkkürümü bildirirəm. Biz Vətəndən uzaqda olsaq da, hər zaman Azərbaycan dəyərlərini qoruyur və burada tanınması üçün əlimizdən nə gəlirsə etməyə hazırıq. Əminəm ki, Sizin yüksək dövləti vəzifədə fəaliyyətiniz Azərbaycan dövlətinin hər zaman bütün sahələrdə daha böyük tərəqqi əldə etməsinə şərait yaradacaqdır.

Cənab Prezident, Sizə səmimi qəlbdən möhkəm cansağlığı, bütün niyyət və istəklərinizin uğurla həyata keçməsini arzu edirəm. Göstərdiyiniz diqqət və fəaliyyətimizə verdiyiniz dəyər üçün ailəm adından və İllinoysda yaşayan azərbaycanlılar adından Sizə təşəkkür edirəm".

"Qarabağ Zəfəri Azərbaycan xalqını bir yumruq kimi birləşdirdi"

Türkiyənin Adana şəhərindən Cahangir Novruzov yazır: "Möhtərəm Prezidentim.

Siyasi və strateji zəkanızın əsəri olan Qarabağ Zəfərinin Azərbaycan xalqını bir yumruq kimi birləşdirdiyi bu sevincli günlərdə, unudulmaz ulu öndərimiz Heydər Əliyev bizə miras qoyub getdiyi "31 Dekabr - Dünya azərbaycanlılarının Həmrəylik Günü" ərəfəsində, dünyanın dörd bir yerinə yayılmış və vahid vücud kimi vətənimiz uğuruna fəaliyyət göstərən Azərbaycan Diasporunun üzvlərini təltifləndirmək üçün təsis etdiyiniz bu dəyərli mükafat, bizlərin əməyinə verdiyiniz böyük bir dəyərdir. Bu mükafatı alanlar sırasında məni də unutmadığınız üçün, şəhid və qazilərimizə yardım məqsədilə yaratdığınız "YAŞAT" Fondunun himayədarlar heyətinə məni də layiq gördüyünüz üçün Sizə dərin təşəkkürümü bildirirəm. Ayrıca Qarabağ Zəfəri ilə Azərbaycanı sevindirdiyiniz üçün, xalqımızın 30 illik yaralarına məlhəm qoyduğunuz üçün, Xocalı və 1-ci Qarabağ müharibəsinin şəhidlərinin də qanını yerdə qoymadığınız üçün, ağlar analara qələbə sevinci yaşatdığınız üçün, övladlarımızın sonsuza qədər başlarını dik tutaraq yaşayacaqları üçün Sizə dərin minnətdarlığımı və təşəkkürümü bildirməkdən şərəf hissi yaşayıram".

"Sizin doğru siyasətiniz və güclü ordumuz sayəsində

illərlə işğal altında olan torpaqlarımız azad edildi"

Xocavənd sakini Türkan Mərkəzli: "Dahi Sərkərdə və Müzəffər Ali Baş Komandan.

Mənim 22 yaşım var. Əslən Xocavənd rayonunun Salakətin kəndindənəm. Düzdür mən Xocavəndi görməmişəm amma ürəyim həmişə Xocavəndlə döyünüb. Mən bir Azərbaycanlı kimi Sizə və Ordumuza təşəkkürümü bildirirəm. Sizin doğru siyasətiniz və güclü ordumuz sayəsində illərlə işğal altında olan torpaqlarımız azad edildi. Şəhidlərimizin valideynlərinin əllərindən öpürəm. Şəhidlərimizə Allahdan rəhmət, yaralılarımıza şəfa diləyirəm. Xalqımıza da birlik göstərdikləri üçün təşəkkürümü bildirirəm.

Yaşasın Ali Baş Komandan! Yaşasın Azərbaycan Xalqı! Yaşasın Azərbaycan Ordusu!

Qarabağ Azərbaycandır!".

"Diaspora qayğı, dəstək göstərməklə ana Vətənimizin heç də uzaqda olmadığını hiss etdirirsiniz"

İsveçin Yönçöpinq şəhərindən İradə Əliyeva-Söderberq: "Möhtərəm cənab Prezident.

"Diaspor fəaliyyətində xidmətə görə" medalı ilə təltif edildiyimə görə Sizə dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Bu çətin, tarixi əhəmiyyətli dönəmdə, bütün Azərbaycan xalqının ümid və arzularını doğrultmaq üçün, Azərbaycan dövlətinin dünya coğrafiyasında, dünya siyasi xəritəsində, dünya diplomatiyasında öz yerini möhkəmləndirmək işlərinin ağır yüklərini çiyninizdə daşıdığınız bir zamanda bizi, Azərbaycandan kənarda yaşayan Azərbaycan diasporunu da diqqətdə saxlayırsınız. Diaspora qayğı, dəstək göstərməklə ana Vətənimizin heç də uzaqda olmadığını, hansı ölkədə yaşamağımızdan asılı olmayaraq Azərbaycan dövlətinin Azərbaycan diasporunun yanında olduğunu hiss etdirirsiniz. Xalqımıza, dövlətimizə xidmət etmək hər birimizin şərəfli borcumuzdur. Mən bundan sonra da mənə göstərilən bu şərəfli diqqəti doğrultmaq üçün bütün gücümlə, bacarığımla çalışacağam. Doğma Vətənimiz Azərbaycanı yaşadığım İsveç Krallığında böyük başucalığı ilə təmsil edəcəyəm. Mənə göstərilən etimadı doğrultmaq üçün bundan sonra da milli mənafelərimizi hər şeydən üstün tutaraq birliyimizə, həmrəyliyimizə xidmət edəcəyəm".

"Əminik ki, dağıdılan, viran qoyulan evlərimiz Sizin sayənizdə yenidən dirçələcək"

Füzuli rayon sakini Nəriman Nəsirov yazır: "Hörmətli cənab Prezident,

Bu gün Azərbaycan xalqı çox xoşbəxt xalqdır ki, Sizin kimi Prezidenti, Müzəffər Ali Baş Komandanı var. Erməni cəlladlarının illərlə xalqımızın başına gətirdikləri müsibətlərin qisasını aldınız, 30 illik Qarabağ problemini həll etdiniz, ata-baba yurdumuzu erməni faşistlərindən təmizlədiniz, bizim olanı bizə qaytardınız. Azad olunan torpaqlarımıza səfərlərinizi böyük sevinclə izləyirik. Biz qayıtmalı idik və qayıtdıq!

Əminik ki, dağıdılan, viran qoyulan evlərimiz Sizin sayənizdə yenidən dirçələcək. Mən Horadiz şəhər məscidinin axunduyam. 44 günlük Vətən müharibəsi dövründə biz din adamları da xalqımız, dövlətimiz üçün dualar etdik. Hər zaman Sizin əmrinizə müntəzirik və Sizin əsgərlərinizik. Qələbə münasibətilə Sizi və ailənizi Füzuli dindarları adından səmimi qəlbdən təbrik edir, Allahdan Sizlərə möhkəm cansağlığı arzulayıram".

"Siz Laçını azad etməklə mənə yeni həyat verdiniz"

Sabirabad rayon sakini Mirzə Mirzəyev: "Müzəffər Ali Baş Komandan, İkinci Vətən müharibəsinin Milli Qəhrəmanı, şərəfli ordu generalı, qarabağlıları başuca edən əbədi Prezidentimiz İlham Əliyev!

Allah Sizi qorusun! Siz biz köçkünləri sevindirdiniz, Allah da Sizi sevindirsin. Arzu edirəm ki, bütün azad edilmiş rayonlarda heykəliniz ucaldılsın. İstərdim ki, uzun illər Prezidentimiz olasınız və işğaldan azad olunmuş yerlərimizi əvvəlkindən də gözəl məkana çevirəsiniz. Çox sağ olun ki, 30 il əsirlikdə olan torpaqlarımızı azad etdiniz. Qarabağ həsrəti ilə dünyasını dəyişmiş ulu öndər Heydər Əliyevin ruhu şad oldu. Mən Laçın rayon sakiniyəm. 65 yaşım var, artıq ümidim yox idi ki, bir daha Laçını görə biləcəm. Siz Laçını azad etməklə mənə yeni həyat verdiniz".

# “Horadiz” sərhəd dəstəsinin “Bartaz” zastavasında Azərbaycan Respublikasının dövlət bayrağı qaldırılıb







Yanvarın 5-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Horadiz” sərhəd dəstəsinin “Bartaz” sərhəd zastavasında Azərbaycan Respublikasının üçrəngli bayrağının qaldırılması mərasimi keçirilib. AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, mərasimdə media nümayəndələri də iştirak ediblər.

Azərbaycan Respublikasının Dövlət Himninin sədaları altında dövlət bayrağı qaldırıldıqdan sonra şəxsi heyətə təbriklər çatdırılıb, Vətəninə, xalqına, Prezidentinə sadiq, səngərdə və sərhəddə böyük əzmlə xidmət aparan Azərbaycan sərhədçilərinin Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin döyüş tapşırığını şərəflə yerinə yetirməkdən qürur duymaları xüsusi qeyd olunub.

Sərhədçilər yaradılmış şəraitə, diqqət və qayğıya, göstərilən yüksək etimada görə təşəkkürlərini ifadə edib, ali etimadı şərəfli xidmətləri ilə doğruldacaqlarına, dövlət sərhədlərimizin etibarlı mühafizəsini təmin edəcəklərinə, bərpa olunmuş müqəddəs sərhədlərimizin bir daha yağı düşmən tərəfindən tapdalanmasına imkan verməyəcəklərini əminliklə bildiriblər.

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz tərəfindən həyata keçirilən uğurlu əks-hücum əməliyyatları nəticəsində düşmənə sarsıdıcı zərbə vurulub və otuz ilə yaxın müddətdə işğal altında qalan torpaqlarımız azad edildi, Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olunub.

Qırx dörd günlük Vətən müharibəsi zamanı Müzəffər Ali Baş Komandanın Dövlət Sərhəd Xidmətinin qarşısında qoyduğu döyüş tapşırıqlarının uğurlu icrası üçün bütün qüvvə və vasitələr tam səfərbər edilib. Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları Azərbaycan-İran dövlət sərhədinin 132 kilometrlik hissəsinin, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının, Hadrut qəsəbəsinin və Şuşa şəhərinin azad olunmasında şücaət və qəhrəmanlıq göstəriblər.

Vətən müharibəsinin ilk günündən başlayaraq Azərbaycan sərhədçiləri tərəfindən Füzuli rayonu ərazisindəki təmas xəttindən Ermənistanla dövlət sərhədinədək böyük bir ərazi azad edilib, o cümlədən 24 saat ərzində 105 kilometr məsafədə ildırımsürətli hücumla düşmənə sarsıdıcı zərbələr endirilib. Qədim Xudafərin körpüsündə və dövlət sərhədlərimiz boyu müqəddəs torpaqlarımıza Azərbaycan bayrağı sancılıb, Ermənistanla dövlət sərhədində strateji yüksəkliklər azad olunub. Dövlət Sərhəd Xidmətinin “Harop”, “Quzğun” və “Hermes” pilotsuz uçuş aparatlarının peşəkarcasına tətbiqi nəticəsində düşmənin strateji əhəmiyyətli döyüş texnikaları, raket sistemləri, zenit-raket kompleksləri, tankları, zirehli döyüş maşınları və digər texnikası, komanda idarəetmə məntəqələri və çoxsaylı canlı qüvvəsi zərərsizləşdirilib, ümumilikdə 290 düşmən hədəfi məhv edilib.

# Hikmət Babaoğlu: “Qərar qəbul edilərkən vətəndaşlarımızın sosial mənafeyi nəzərə alınıb”



“Dünya enerji bazarında müşahidə edilən qiymət artımı enerjidaşıyıcılarının qiymətinin yenidən tənzimlənməsi məsələsini aktuallaşdırıb. Hazırda qlobal tendensiya ondan ibarətdir ki, benzin və dizel yanacağının pərakəndə qiymətlərində demək olar ki, dünyanın hər yerində qiymət artımı müşahdə edilir. Bunun obyektiv səbəbləri var və təcrübə göstəririri ki, vaxtında bu cür qərarların qəbul edilməsi sonrakı mərhələdə müvafiq sektorda yarana biləcək mümkün risklərin qarşısını alır. Əslində hələ 2020-ci ildə bəzi ölkələrdə belə artım müşahidə edilməyə başlandı və çevik iqtisadi üsullarla artım dinamikası müəyyənləşdirilərək dərhal istehlak bazarında öz əksini tapdı. Məsələn biz 2019-2020-ci illərdə Türkiyə, Rusiya, Gürcüstan, Ukrayna, Almaniya və.s kimi ölkələrdə müvafiq olaraq benzin və dizel yanacağının qiymətində 4 faizdən 32 faizədək artım müşahidə edik”. Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib.

Deputatın sözlərinə görə, bütövlükdə Beynəlxalq Enerji Agentliyinin məlumatına görə, 2019-cu ildə dünyada benzinin orta qiyməti bir litrə görə 0,91 dollar olduğu halda, 2020-ci il dekabrın sonunda artıq 1,04 dollar təşkil edib ki, bu da il ərzində 14% artım deməkdir: “Lakin bu dövr ərzində Azərbaycanda dövlətin həyata keçirdiyi xüsusi sosial və tarif siyasəti sayəsində qiymət bazarı sabit olaraq qaldı. Beləki, ölkəmizdə dizel yanacağı üzrə sonuncu qiymət tənzimlənməsi 2013-cü ildə, Aİ-92 markalı benzin üzrə isə 2017-ci ildə aparılıb. Ancaq ötən dövr ərzində respublika üzrə orta aylıq əmək haqqı uyğun olaraq 425,1 manat və 528,5 manat təşkil edib, 2013-2020-ci illərdə ölkədə orta aylıq əmək haqqı 66%, pensiyalar 73% artıb. Ötən ilin 10 ayında (yanvar-oktyabr) orta aylıq əmək haqqı 704,5 manat təşkil edib. Göründüyü kimi əhalinin gəlirlərində əhəmiyyətli artım qeydə alınıb və bu özlüyündə vətəndaşlarımızın alıcılıq qabiliyyətinin yüksəlməsi deməkdir. Lakin göründüyü kimi bu mərhələdə benzinin və dizel yanacağının parakəndə satış qiymətində heç bir artım baş verməyib. Baxmayaraq ki, son illərdə Azərbaycana avtomobil idxalı əhəmiyyətli dərəcədə artıb. Belə ki, 2018-ci ildə 28.876, 2019-cu ildə 47.710, 2020-ci ilin 11 ayında isə 47.841 avtomobil idxal edilib. İdxalın artması analoji olaraq, benzinə və dizelə tələbat da artırıb ki, bu da qiymət tənzimlənməsini zəruri edən səbəblərdən birinə çevirilib”.

H.Babaoğlu vurğulayıb ki, eyni zamanda 2019-cu ildən başlayaraq Azərbaycan Prezidentinin təşəbbüsü ilə iki inqilabi sosial paket həyata keçirilib: “Pandemiya dövründə əhaliyə və biznesə dəstək paketləri reallaşdırılıb. Bu iki sosial paket ümumilikdə 4,2 mln. nəfəri əhatə edib ki, bu da əhalimizin 42 faizi deməkdir. Paketlərin maliyyə həcmi isə 2019-cu il üçün 2,3 mlrd. manat, 2020-ci il üçün isə 3 mlrd. manat təşkil edib. Göründüyü kimi, bütün bunlar ümümi iqtisadi münasibətlər və real maliyyə münasiibətləri kontekstində obyektiv qiymətləndirmə tələb edir. Ancaq buna baxmayaraq hazırda tətbiq edilən qiymət artımı digər sahələrdə qiymət artmına səbəb olmayacaq. Çünki paralel olaraq müvafiq önləyici tədbirlər də həyata keçirilir. Məsələn qiymət tənzimlənməsi nəticəsində dövlət büdcəsinə əlavə daxilolmalar proqnozlaşdırılır ki, yaranan əlavə vəsait ölkədə həyata keçirilən sistemli və davamlı xarakter daşıyan sosial siyasətə uyğun olaraq, sosialyönümlü tədbirlərə yönəldiləcəkdir. Bu isə qiymət artımına qarşı həssas olan sosial təbəqəni qorumaq deməkdir. Dizel yanacağının qiymət artımının sərnişindaşıma ilə məşğul olan sahibkarlıq subyektlərinə təsirinin neytrallaşdırılması üçün onlara kompensasiya ödəniləcəkdir. Kompensasiyanın verilməsi mexanizmi yanvar ayının sonunadək açıqlanacaqdır. Bu, əhalinin, xüsusilə sosial həssas qrupun mənafeyinə xidmət edən, vətəndaşların gündəlik həyatda daha çox istifadə etdiyi ictimai nəqliyyatda tarıf dəyişikliyi aparılmaması üçün atılan mühüm addımdır. Göründüyü kimi qiymət artımı ilə bağlı qərar qəbul edilərkən məsələyə kompleks yanaşılmaqla həsas sosial qrupların və vətəndaşlarımızın sosial mənafeyi nəzərə alınıbdır”.

**Aysel Məmmədova**

# Peskov: “Putinin Qarabağda etdiyi sülh, barış üçündür”



***Böyük ölkələr əvvəllər də olduğu kimi sülhə görə məsuliyyət daşıyır və Putinin də Qarabağda etdiyi məhz bunun üçün, sülh və barış üçündür. SİA Rusiyaya məxsus TASS agentliyinə istinadən xəbər verir ki, bu sözləri Rusiya prezidentinin mətbuat katibi rusiyalı jurnalist Vladimir Solovyova verdiyi müsahibəsində deyib.***

Rusiya prezidentinin mətbuat katibi, xüsusilə Dnestryanıya toxunaraq, “biz dünyanın müxtəlif bölgələrindəki dağınıqlıq kimi vəziyyətin sabitləşməsindən sığortalı deyilik”, deyib. Eyni zamanda, Kremlin sözçüsünə görə, dünyada nüvə pariteti olduğu müddətdə genişmiqyaslı müharibədən söhbət gedə bilməz. “Müharibə, Allaha şükür, nüvə pariteti olduğu müddətdə mümkün deyil”, söyləyən Kreml sözçüsü, “bu, dünyanı müharibədən xilas edir”, deyib. “Dəhşətli müharibələr, halbuki burnumuzun ucunda baş verir”, deyə Peskov bildirib.

**İnam Hacıyev**

# Daha 4 erməni hərbçi cəsədinin qalıqları tapılıb



Qarabağda daha dörd erməni hərbçisinin cəsədinin qalıqları tapılıb. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə qondarma rejimin Dövlət Fövqəladə Hallar Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Hunan Tadevosyan Sputnik Ermənistan-a bildirib. O, qeyd edib ki, iki axtarış qrupu Hadrut bölgəsində və Füzuli-Hadrut istiqamətində tapılması mümkün olanları axtarmağa davam edir. “Yanvarın 5-də bölgədə daha 4 hərbçinin cəsədi tapılıb. Bu gün axtarış işləri həmin istiqamətlərdə davam edir”, deyə Tadevosyan bildirib. Xatırladaq ki, 5 yanvar tarixinə hərbçi və mülki vətəndaşlar da daxil olmaqla ümumilikdə 1188 erməni cəsədi tapılıb.

# Prezidentin yürütdüyü siyasətdə vətəndaşların mənafeyi öndə gəlir

*“Qarabağ Dirçəliş Fondu”nun yaradılması reallığını təsdiqidir*



***Məlum olduğu kimi, 2021-ci il yanvarın 4-də Azərbaycan Prezidenti İlham Əliyev “Qarabağ Dirçəliş Fondu” publik hüquqi şəxsin yaradılması haqqında Fərman imzalayıb. Fərmanda Azərbaycan xalqının ərazilərini Ermənistan işğalından azad edərək, tarixinin ən yaddaqalan və şanlı dövrünə qədəm qoyduğu vurğulanır. Qeyd olunur ki, ölkənin ərazi bütövlüyünün bərpası dövlətimiz üçün beynəlxalq hüququn və milli-mənəvi dəyərlərin aliliyinin nümayişidir. Otuz ilə yaxın bir müddət ərzində erməni qəsbkarları tərəfindən maddi və mədəni sərvətləri talan edilmiş ərazilərimizin yenidən həyata qaytarılması ölkənin siyasi-iqtisadi suverenliyinin güclənməsinin mühüm dayaqlarından biri olacaq. İşğaldan azad edilmiş bölgələrdə məskunlaşma, layiqli yaşayış və iqtisadi fəallıq təmin ediləcək, bu ərazilərdə həyata keçiriləcək quruculuq-bərpa işləri ölkəmizin sosial-iqtisadi inkişafının əsaslarını daha da möhkəmləndirməklə yanaşı, Azərbaycanın yeni inkişaf prosesində mühüm mərhələ olacaq.***

Sənəddə, həmçinin vurğulanır ki, işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin aparılması istiqamətində hər bir şəxsin göstərəcəyi dəstək tarixi qələbəmizə, qüdrətli və güclü Azərbaycan naminə milli birlik ideyasına, suveren və təhlükəsiz yaşamaq məqsədimizə mühüm töhfə olacaq. Qeyd edək ki, Fondun vəsaitləri fiziki və hüquqi şəxslərin ianələri, qrantlar və qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşır.

## Tarixi Qarabağımızın tarixinə qayıdışı

Bəli, 30 il həsrətində qaldığımız tarixi dədə-baba torpağımız - Qarabağlımızın əvvəlkindən də daha gözəl bir diyara çevriləcəyi elə ilk qələbələrimizdən başlanıldı.

Bir məqamı xüsusilə vurğulamaq lazımdır ki, ərazilər işğaldan azad olunduqca ermənilərin bizim torpaqlarda talançılıq və dağıdıcılıqla məşğul olması bir daha sübut olunur. Qarabağın işğaldan azad olunması Azərbaycan iqtisadiyyatının genişlənməsinə və diversifikasiyasına töhfə olacaq. Çünki dövlətimizin başçısı demişkən “Qarabağ Azərbaycandır!”

İşğaldan azad edilən ərazilərimizdə artıq yeni infrastrukturun qurulmasına başlanılması onu göstərir ki, tarixi və əzəli torpaqlarımıza yenidən nəfəs gəlit, Talış və Suqovuşan kəndlərinə yeni avtomobil yollarının çəkilməsi böyük qayıdışın artıq başladığının əlamətlərindən biridir.

Və bu gün “Qarabağ Dirçəliş Fondu” işğaldan azad olunmuş torpaqlarımızı əvvəlkindən də daha yüksək səviyyədə özünə qaytarılmasında mühüm rol oynayacaq. Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad olunmuş torpaqlarımıza tarixi səfərləri zamanı erməni faşistləri tərəfindən dağıdılıb viranə qalmış yurdlarımızı ürəkağrısı ilə seyr edərkən bildirib ki, tezliklə bütün bu yurdlar abadlaşdırılacaq, Qarabağa yeni həyat bəxş ediləcək və məcburi köçkünlərin hər biri öz doğma yurduna dönəcək. Prezidentin işğaldan azad edilmiş rayonlara artıq ənənə halını almış səfərləri həm də erməni vandalizmi nəticəsində tamamilə dağıdılmış, yerlə-yeksan edilmiş şəhər, rayon və kəndlərin bərpası və yenidən qurulması ilə bağlı qərar qəbul etmək məqsədi daşıyır.

Bəli, illər sonra Azərbaycanın Müzəffər Ordusu düşmənin başına dəmir yumruq endirərək Qarabağı işğalçılardan təmizlədi. 30 illik münaqişə 44 gündə Azərbaycanın haqlı qələbəsi ilə bitdi. Bu şanlı və tarixi Qələbənin müəllifi, 44 günlük savaşın qalib sərkərdəsi isə Prezident, müzəffər Ordumuzun Ali Baş Komandanı İlham Əliyevdir.

Proezident, Ali Baş Komandan İlham Əliyev dediyini etdi, Qarabağı Azərbaycana qaytardı. Azad olunmuş ərazilər yenidən qurulduqdan sonra məcburi köçkünlərin öz doğma yurdlarına möhtəşəm qayıdışı baş verəcək, həmin bölgəyə həyat qayıdacaq. Və Azərbaycan Prezidenti növbəti səfərləri zamanı bu torpaqlarda yeni şəhər və qəsəbələrin, infrastrukturların, sosial obyektlərin və müxtəlif müəssisələrin açılışlarını edəcək.

Bu baxımdan da Prezident İlham Əliyev cənablarının işğaldan azad olunan torpaqlarımızın inkişafı ilə bağlı imzaladığı Fərman və Sərəncamları, o cümlədən “Qarabağ Dirçəliş Fondu” 30 il həsrətində olduğumuz torpaqlarımızda quruculuq işlərinin həyata keçirilməsində, Qarabağa layiqli həyatın qaytarılmasında mühüm rol oynayacaq və tarixi qələbəmizə, qüdrətli və güclü Azərbaycan naminə milli birlik ideyasına, suveren və təhlükəsiz yaşamaq məqsədinə mühüm töhfə olacaq.

Dövlət başçımızın dediyi kimi, biz qələbə qazanmışıq, düşməni torpaqlarımızdan qovmuşuq: “Biz gücümüzü bilirik. Dünya da bizim gücümüzü bilir. Biz nəinki öz ərazimizdə, istəsəydik Ermənistan ərazisində istənilən hərbi əməliyyatı tamamilə yerinə yetirə bilərdik. Bu gün də yerinə yetirə bilərik. Ermənistan tərəfi də bunu bilir. Sadəcə olaraq, biz həmişə beynəlxalq hüquqa hörmətlə yanaşmışıq və həmişə demişəm ki, bizim başqa ölkələrin torpaqları ilə işimiz yoxdur. Biz öz torpağımızda yaşamalıyıq, yaşayacağıq, düşməni öz torpağımızdan qovmuşuq, bütün bu bölgəni bərpa edəcəyik”.

Bəli, Ermənistanı diz çökdürən müharibənin qalibi Azərbaycan işğaldan azad olunmuş bütün şəhər və rayonlarını, kənd və qəsəbələrini yenidən quracaq. Ermənistan isə tarixi boyu Azərbaycanın dəmir yumruğunun ağrısını hiss edəcək.

***RƏFİQƏ KAMALQIZI***

# "2020-ci il Azərbaycan üçün çox böyük uğurlarla yadda qaldı"



**Milli Məclisin deputatı, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyevanın yap.org.az-a müsahibəsi:**

***-Sevinc xanım, 2020-ci il artıq tarixə qovuşdu. Sizcə, başa vurduğumuz il Azərbaycan üçün hansı uğurlarla yadda qaldı?***

-Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib. Qazanılan uğurlar, torpaqlarımızın işğaldan azad olunması isə regionda yeni vəziyyət yaradır. Bu amil Azərbaycanın beynəlxalq aləmdə mövqeyini əhəmiyyətli dərəcədə gücləndirəcək. Əminliklə demək olar ki, Ümummilli Liderin qurduğu müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin liderliyi ilə öz tarixinin yüksəlişlə müşayiət olunan şərəfli bir dövrünü yaşayır. Bundan sonrakı mərhələlərdə Azərbaycan daha da güclənəcək, dünyada nüfuzunu daha da artıracaq, regionda yeni gücə çevriləcək. Heç bir qüvvə Azərbaycanı tutduğu uğurlu yoldan bundan sonra da döndərə bilməyəcək.

Başa vurduğumuz 2020-ci il Azərbaycan üçün istər siyasi, istər diplomatiya, istər hərbi, istərsə də digər sahələr üzrə uğurlarla yadda qaldı. Ötən ilin ən mühüm uğuru isə 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan şanlı Zəfərdir. Bu möhtəşəm Zəfər nəticəsində torpaqlarımız Ermənistanın işğalından azad olundu və 30 ilə yaxın davam edən Dağlıq Qarabağ münaqişəsinə son qoyuldu. Məhz buna görə 2020-ci il Azərbaycanın tarixində Zəfər ili kimi qalacaq. Azərbaycan uzun illər bu münaqişənin sülh yolu ilə həllinə nail olmaq üçün səylər göstərsə də, Ermənistanın ötən müddət ərzində işğalçılıq siyasətindən əl çəkməməsi, son illərdə isə bu ölkənin rəsmilərinin yeni ərazilər tutmaq iddialarını açıq şəkildə dilə gətirmələri, tez-tez təhrikedici açıqlamalar verməsi, 2019-cu ildə baş nazir Nikol Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" ifadəsi kimi təxribat xarakterli bəyanatları və addımları danışıqlar prosesinə ciddi zərbə vurdu.

Azərbaycan Prezidenti beynəlxalq birliyi Ermənistanın əməlləri barədə vaxtaşırı məlumatlandırırdı. Fevralın 15-də keçirilmiş Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Paşinyan ilə debatda Prezident İlham Əliyev tarixi və hüquqi arqumentlərə əsaslanaraq Ermənistanın mövqeyini darmadağın etdi və Paşinyanı dünya ictimaiyyətinin gözü qarşısında məğlubiyyətə uğratdı. Eyni zamanda, iyunun 18-də Prezident İlham Əliyev Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında sammitində çıxışı zamanı Ermənistanın danışıqların mahiyyətini və formatını məhv etməsi məsələsini qabartdı. Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 24-də BMT Baş Assambleyasının 75-ci sessiyasında beynəlxalq ictimaiyyəti Ermənistanın yeni müharibəyə hazırlaşması barədə xəbərdar etdi və bunun qarşısını almağa çağırdı. Beynəlxalq birliyin susqunluğundan daha da ürəklənən işğalçı Ermənistan isə yenə dayanmadı və sentyabrın 27-də qoşunların təmas xəttində daha genişmiqyaslı təxribata əl atdı. Lakin bu işğalçı ölkə üçün darmadağın və kapitulyasiya ilə nəticələndi.

***-Sizcə, Vətən müharibəsində dövlətimizin şanlı Qələbəsini şərtləndirən amillər nədən ibarətdir?***

-Vətən müharibəsində dövlətimizin şanlı Qələbəsini şərtləndirən bir sıra mühüm amillər var. Belə ki, son 17 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıl şəkildə həyata keçirilən məqsədyönlü siyasət sayəsində Qarabağ münaqişəsinin ədalətli həlli üçün əlverişli hüquqi baza formalaşmış, vacib beynəlxalq sənədlər qəbul olunmuşdu. Təbii ki, bu məsələdə dövlətimizin başçısının bütün beynəlxalq platformalarda Ermənistanın işğalçılıq siyasətini, Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin tarixi faktlara və beynəlxalq hüquqa əsaslanan prinsipial mövqeyini dünya ictimaiyyətinin diqqətinə çatdırması mühüm rol oynayıb. Eyni zamanda, 44 günlük müharibə günlərində dünyanın nüfuzlu KİV-lərinə müsahibələr verən Prezident İlham Əliyev həm işğalçı Ermənistanın, həm də bu ölkənin xarici havadarlarının əməllərini bütün dünyaya bir daha çatdırdı.

Digər vacib bir məqam isə ölkəmizin iqtisadi sahədə əldə etdiyi uğurlar hesabına Silahlı Qüvvələrimizin hərbi qüdrətinin artırılması üçün ötən 17 ildə atılan davamlı addımlarla bağlıdır. Yəni, 17 il ərzində Azərbaycan münaqişənin həlli istiqamətində siyasi müstəvidə fəallıq göstərməklə yanaşı, həm də ölkəmizin iqtisadi, hərbi gücünün artırılması istiqamətində məqsədyönlü iş aparıb. Həyata keçirilən islahatlar respublikamızı güclü iqtisadi dayaqlara malik ölkəyə çevirib. Bütün bu məsələləri Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 31-də xalqa müraciəti zamanı bəyan etdi. Bütövlükdə, 44 günlük Vətən müharibəsi Azərbaycanın siyasi, iqtisadi, diplomatik və hərbi qüdrətini, həmçinin xalqımızın milli birliyini və sarsılmaz iradəsini bütün dünyaya nümayiş etdirdi.

Təbii ki, bu müharibənin əsas qəhrəmanı Prezident İlham Əliyevdir. Dövlətimizin başçısı Vətən müharibəsi dövründə bütün təzyiqlərə mətanətlə sinə gərərək Azərbaycanın haqlı mövqeyini qətiyyətlə müdafiə etdi. Bəzi xarici ölkələr, təşkilatlar, siyasi dairələr iddia edirdilər ki, münaqişənin hərbi həlli yoxdur. Lakin Prezident İlham Əliyev "Dəmir yumruq" əməliyyatı ilə sübut etdi ki, münaqişənin hərbi həlli var. Nəticədə ölkəmiz BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı dörd qətnaməsini özü icra etdi. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə mövqeləri güclənib və bundan sonrakı mərhələdə bu mövqe daha da möhkəmlənəcək.

Dövlətimizin başçısı dekabrın 31-də etdiyi müraciət zamanı gələcək hədəflərlə bağlı da fikirlərini səsləndirdi. Əminik ki, qarşıdakı dövrdə Prezident İlham Əliyevin liderliyi ilə ərazi bütövlüyünü bərpa etmiş Azərbaycan bütün sahələrdə daha möhtəşəm, əzəmətli nailiyyətlər qazanacaq.

***-Ötən ilin mühüm hadisələrindən biri də Azərbaycan Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində Xüsusi sessiyasının keçirilməsi oldu. Bu barədə nə deyə bilərsiniz?***

-Ötən il 3-4 dekabr tarixində BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində keçirilən Xüsusi sessiyası qlobal miqyasda çox mühüm hadisədir. Bu sessiyanın keçirilməsinin təşəbbüskarı özündə 120 dövləti birləşdirən Qoşulmama Hərəkatının Sədri, Azərbaycan Prezidenti İlham Əliyevdir. Təşkilata Sədrliyi həyata keçirən Azərbaycanın Prezidenti cari ilin may ayında qurumun Təmas qrupunun koronavirusla mübarizəyə həsr edilmiş Zirvə görüşündə belə bir təşəbbüslə çıxış etmişdi. Cənab Prezidentin bu təşəbbüsü Qoşulmama Hərəkatının 120 üzvü tərəfindən dəstəkləndi. Ümumilikdə, BMT-nin 150-dən artıq üzv dövləti həmin təşəbbüsə öz dəstəyini ifadə etmişdi.

Azərbaycanın təşəbbüsünə BMT səviyyəsində yüksək dəstək verilməsi respublikamızın beynəlxalq nüfuzunun getdikcə artmasını bir daha təsdiqləyir. Belə genişmiqyaslı tədbirin keçirilməsi Azərbaycana və onun Liderinə dünyada olan inamın, etibarın və etimadın göstəricisidir. Xüsusi sessiyada çıxış edən Prezident İlham Əliyev bildirib ki, bu gün dünya üçün ən böyük təhlükə olan COVID-19 pandemiyası ilə mübarizədə beynəlxalq ictimaiyyətin birgə səylərinə çox böyük ehtiyac var. İndiki həssas məqamda BMT Baş Assambleyasının Xüsusi sessiyasından gözləntilərin böyük olduğuna diqqət çəkən dövlətimizin başçısı vurğulayıb ki, Xüsusi sessiya pandemiya ilə qlobal mübarizəyə öz töhfəsini verəcək və bizi ümumi hədəflər ətrafında daha da sıx birləşdirəcəkdir.

Xüsusi sessiyada çıxış edən dünya ölkələrinin liderləri və digər nümayəndələr COVID-19 pandemiyası ilə mübarizənin önəmini vurğulayıblar. Aparılan müzakirələr bir daha Azərbaycan Prezidentinin təşəbbüsünün nə qədər böyük əhəmiyyət kəsb etdiyini təsdiqlədi.

## Hulusi Kılıç: Bölgədəki vəziyyəti gərginləşdirmək cəhdləri Ermənistana fəlakət vəd edir

Ermənistanın xarici işlər naziri Ara Ayvazyanın Azərbaycanın Qarabağ bölgəsinə qanunsuz səfəri, burada qondarma qurumun nümayəndələri ilə görüşlər keçirməsi və "sənədlər" imzalaması erməni quldur dəstələrinin Azərbaycan tərəfinə silahlı hücumları ilə eyni mahiyyətli bir hərəkətdir. Hər iki hal 10 noyabr tarixli üçtərəfli Bəyanata ziddir və bütün bunlara görə baş verəcək xoşagəlməz hadisələrə görə məsuliyyəti təkcə qarşı tərəfdəki hakimiyyət deyil, bütövlükdə Ermənistan dövləti daşıyır.



Bu fikirləri Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç açıqlamasında söyləyib.

Azərbaycan güclü imkanlara malik dövlət olduğunu bildirən H.Kılıç deyib: "Ermənistan hakimiyyəti avantüradan uzaq dayanmalıdır. Anlamalıdır ki, Azərbaycan ərazi bütövlüyü ilə bağlı məsələlərdə işğalçıya heç bir güzəşt etməyəcək. Erməni rəsmi dairələrinin bəzi addımları, o cümlədən xarici işlər naziri Ara Ayvazyanın Azərbaycan sərhədini qanunsuz keçməsi hərbi əməliyyatların dayandırılmasından sonra bölgədə sülh, təhlükəsizlik və əməkdaşlığın yaradılması istiqamətindəki səylərə qətiyyən uyğun gəlmir".

O əminliklə bildirib ki, bölgədəki Rusiya sülhməramlı qüvvələri bundan sonrakı dövrdə proseslərə daha məsuliyyətlə yanaşacaq və erməni tərəfinin siyasi-hərbi təxribatları ilə bağlı ciddi ölçü götürəcəklər.

## Dünya Bankı: 2022-ci ildə Azərbaycanda ÜDM 4,5 faiz artacaq




2021-ci ildə Azərbaycan iqtisadiyyatının 1,9 faiz səviyyədə inkişaf edəcəyi gözlənilir. SİA-nın verdiyi məlumata görə, bu barədə Dünya Bankının (WB) yaydığı məlumatda deyilir. "COVID-19" peyvəndinin buraxılması üçün ilkin səylərin il ərzində geniş miqyas alması şərti ilə, 2021-ci ildə dünya iqtisadiyyatının 4 faiz artacağı gözlənilir" - sənəddə deyilir.

Bankın mütəxəssislərinin proqnozlarının yer aldığı sənədə əsasən, 2022-ci il ərzində Azərbaycanda ümumi daxili məhsul 4,5 faiz artacaq. Həmçinin qeyd olunur ki, azad edilmiş ərazilərə sərmayə qoyuluşu da iqtisadiyyatın inkişafına gətirib çıxaracaq.

## Azərbaycanda "Banklar haqqında qanun" dəyişdi




Prezident İlham Əliyev "Banklar haqqında qanun"da dəyişiklik edilməsi barədə qanunu imzalayıb. Dəyişikliyə əsasən, bundan sonra kapitalını itirmiş bankın nizamnamə kapitalının məbləği 1 manata endiriləcək və bank bu qiymətə satın alına biləcək. İndiyə qədər sözügedən məbləğ 1,1 manat (ləğv olunmuş şərti maliyyə vahidi qədər) idi.

# Dünyanın mədəniyyət paytaxtı olmağa




***Prezident İlham Əliyevin Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan etməsi mənim üçün bir dünya oldu, çox sevindim. Sanki, Prezidentimiz canım Şuşamın dəyərini, qiymətini bütün dünyaya bir daha bəyan etmiş oldu. Bunu Trend-ə açıqlamasında əslən Şuşadan olan Azərbaycanın xalq artisti Firəngiz Mütəllimova dedi. O bildirdi ki, Şuşa nəinki Azərbaycanın, bütün dünyanın mədəniyyət mərkəzi olmağa layiqdir:***

"Doğrudan da biz gözümüzü açandan dahilərin, dünyanın hər yerindən gələn turistlərin, tarixi abidələrin, çoxsaylı mədəniyyət mərklezlərinin içərisində böyümüşük. Nəhayət, haqq yerini tapdı. Doğulduğum, böyüdüyüm şəhər artıq azaddır. Onsuz da bu dəqiqə Şuşa dünyanın diqqət mərkəzindədir. Şuşa hər zaman mənim üçün müqəddəs bir yer olub. Doğma torpağımdan əlavə, bu şəhər dağın başında, Allaha yaxın bir məqamda yerləşir. İnanın, sevincimin həddi-hüdudu yoxdur. Şuşanın mədəniyyət paytaxtı elan edilməsi məni Şuşanın işğaldan azad olunan gün sevindiyim qədər sevindirdi...".

## Şuşanın əvvəlki siması özünə qayıdacaq

Məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 5-də Anar Kərimovu mədəniyyət naziri təyin olunması ilə əlaqədar qəbul edərkən çıxışında Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan etdi. Bildirdi ki, Şuşa şəhəri buna layiqdir: "Hesab edirəm ki, nəinki Azərbaycanın, bölgənin mədəni paytaxtı sayıla bilər. Şuşanın mədəni həyatı zəngin olmalıdır. Şuşanın bərpası ilə əlaqədar işlərə artıq start verildi. Mənim göstərişimlə böyük heyət oraya ezam edildi. Deməli, yaşayış fondunun, tarixi abidələrin təftişi aparılmalı, vurulmuş ziyan dəqiq hesablanmalıdır və biz Şuşa şəhərinin restavrasiyasına başlamalıyıq. Ancaq yenə də vaxt itirmədən, ancaq, eyni zamanda, tələsmədən Şuşanın ilkin siması, tarixi siması bərpa edilməlidir. O cümlədən Şuşada yerləşən məscidlərimiz əsaslı şəkildə təmir edilməlidir, bərpa olunmalıdır, onların öz siması qaytarılmalıdır". Beləliklə, bu qısa nitqlə dövlət başçısı qədim mədəniyyət mərkəzi olan Şuşa şəhərinin, onun mədəni mərkəzlərinin yenidən qurulması və bərpası ilə bağlı kodeksi təqdim etmiş oldu.

## Şuşa nə üçün bu qədər önəmlidir?

Şuşa istər yerləşdiyi coğrafi mövqe, istərsə də tarixi və mədəni imkanlarından dolayı Azərbaycan dövləti üçün olduqca strateji əhəmiyyətə malikdir. Çünki Şuşa sadəcə coğrafi baxımdan, Azərbaycanın Dağlıq Qarabağ üzərində suveren hüququnu nümayiş etdirən əsas yaşayış məntəqəsi kimi strateji əhəmiyyət kəsb edən bir yer deyil. Şuşa həm də Azərbaycan mədəniyyətinin beşiyi, bir çox görkəmli sənətkarların, musiqiçi, memar, rəssam və ədiblərin, dünya mədəniyyət xəzinəsinə böyük töhfələr vermiş şəxsiyyətlərin yetişdiyi bir yerdir.

Məsələn, Azərbaycan ədəbiyyatında satirik şeirin təməlini qoyanlardan biri olan Qasım bəy Zakir (1784-1857) Şuşada doğulub. Şuşanın yetişdirdiyi istedadlardan biri də Xurşidbanu Natəvan (1830-1897) olub. İbrahimxəlil xanın nəvəsi, Qarabağın sonuncu xanı Mehdiqulu xanın qızı Natəvan həm şairə, həm də rəssam idi. XIX əsrin qabaqcıl şəxslərindən olan Mir Möhsün Nəvvab (1833-1918) Şuşada doğulub. O, şair, rəssam, musiqişünas, astronom, xəttat, nəqqaş və riyaziyyatçı idi.

Şuşanın yetişdirdiyi məşhur sənətkarlardan biri də XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Nəcəf bəy Vəzirovdur (1854-1926). Ədib milli dramaturgiyamızda tragediya janrının banisi, istedadlı publisist idi. Şuşa şəhərində mədəniyyətin, xüsusilə incəsənətin inkişafında Əbdürrəhim bəy Haqverdiyevin (1870-1933) də böyük xidmətləri olub. M.F.Axundovun, N.Vəzirovun ənənələrini davam etdirən Ə.Haqverdiyev mədəniyyət tariximizdə istedadlı dramaturq, nasir, rejissor və görkəmli alim kimi iz qoyub. Şuşada doğulan və ədəbiyyatımıza böyük töhfələr verən ədiblərdən biri də görkəmli yazıçı, tarixi romanlar müəllifi Yusif Vəzir Çəmənzəminlidir (1887-1943).

Tanınmış ədəbiyyatşünas Firudin bəy Əhmədağa oğlu Köçərli (1863-1920) də Şuşada anadan olub. Uzun illər Azərbaycan ədəbiyyatının tarixi ilə məşğul olmuş, "Azərbaycan türklərinin ədəbiyyatı" adlı irihəcmli əsərini yazmışdır. Həmçinin, XX əsrin əvvəllərində görkəmli jurnalist və yazıçı kimi məşhur olan Haşım bəy Vəzirov (1868-1916) Şuşada doğulub. O, 30 il ədəbi jurnalistika sahəsində fəaliyyət göstərib. Bundan başqa, Şuşanın tarixində Gövhər Ağa, Xurşidbanu Natəvan, Ağabəyim Ağa, Fatma xanım Kəminə və Leyla xanım kimi məşhur qadınlar olub. Onlarla bir sırada Həmidə xanımın da adı hörmətlə çəkilir. Həmidə xanım Cavanşir (1873-1955) İbrahim xanın nəslindən olub, Qarabağ tarixçisi Əhməd bəy Cavanşirin qızı, böyük ədib Cəlil Məmmədquluzadənin həyat yoldaşıdır. "Mirzə Cəlil haqqında xatirələrim" adlı qiymətli əsərin müəllifidir.

Azərbaycanın maarif xadimlərindən biri Bədəl bəy Bəşir oğlu Bədəlbəyov (1875-1932) Şuşada anadan olub. Respublikanın xalq artistləri Əfrasiyab Bədəlbəyli, Şəmsi Bədəlbəyli onun oğlu, Fərhad Bədəlbəyli nəvəsidir. Şuşanın yetişdirdiyi şəxsiyyətlərdən biri Əhməd bəy Ağaoğlu (1869-1939) ömrünün 50 ilini publisistika və jurnalistika ilə məşğul olub.

## Qarabağdakı milli irsimiz

Əbəs yerə Azərbaycanın mədəniyyət və incəsənət beşiyi sayılan Şuşanı Qarabağın döyünən qəlbi adlandırmırlar. Şuşa qalası və bir vaxtlar öz möhtəşəmliyi ilə seçilən Yuxarı Gövhər ağa məscidi burada yerləşir.

Məşhur Şuşa qalası - Azərbaycanın Şuşa şəhərini əhatə edən tarixi qala divarlarıdır. Qarabağ xanı Pənahəli xan Bayat qalası və Şahbulaq qalasının əlverişsiz coğrafi mövqeyini nəzərə alaraq 1750-ci ildə Şuşa qalasının bərpa edilməsi haqqında qərar verir və Qarabağ xanlığı mərkəzi bura köçürülür. Qala bərpadan sonra uzun müddət mənbələrdə Pənahabad adlandırılır.

Şuşa qalası Azərbaycan memarlığının ən gözəl incilərindən biridir. Qala Arran memarlıq məktəbi üslubunda inşa edilib. Qalanın üç qapısı var. Onlardan Gəncə qapısı öz yüksək memarlıq xüsusiyyətləri ilə seçilir. Qala dairəvi mühafizə bürclərinə malikdir. Qala yaxınlığında qalanı xarici aləmlə əlaqələndirən yüksək memarlıq keyfiyyətləri olan körpü də inşa edilib ki, bu körpü Qala körpüsü kimi tanınır.

## XVIII əsr Azərbaycanının musiqi mərkəzi

Şuşanın mədəni sərvətləri bunlarla yekunlaşmır. XVIII əsrin II yarısından Şuşa musiqi mərkəzinə çevrilmiş və Azərbaycan musiqisinin yüksəlişinə səbəb olmuşdur. Öz məlahətli səsləri və böyük sənətləri ilə bütün Yaxın Şərqdə məşhur olan xanəndələrdən Hacı Hüsü, Məşədi İsi, Keştazlı Həşim, Əbdülbağı Zülalov (Bülbülcan), Cabbar Qaryağdıoğlu, Məşədi Məmməd Fərzəliyev, Keçəçioğlu Məhəmməd, Segah İslam, Zabul Qasım, Malıbəyli Həmid, Musa Şuşinski, Məcid Behbudov, Mütəllim Mütəllimov və bir çox başqaları Şuşanın yetirdiyi məşhur sənətkarlardır.

Nəhayət, Azərbaycan peşəkar musiqisinin banisi, dahi bəstəkar Üzeyir bəy Hacıbəyli (1885-1948) Şuşanın dünya şöhrətli yetirmələrindəndir. O, Azərbaycan opera musiqisinin banisi kimi tanınmaqla yanaşı, tarixdə istedadlı jurnalist, görkəmli dramaturq, pedaqoq, musiqişünas kimi də ad qazanıb.

Şuşada xanəndəlik sənəti ilə əlaqədar olaraq gözəl tar, kamança və qarmon çalanlar da yetişmişdi. Bu musiqiçilərdən böyük tarzən Sadıqcan, Məşədi Zeynal, Məşədi Cəmil Əmirov, Qurban Pirimov və başqaları ən məşhur sənətkarlardır.

Şuşa eyni zamanda Azərbaycanın bir çox görkəmli bəstəkarlarının vətənidir. Fikrət Əmirov, Zülfüqar bəy Hacıbəyov, Niyazi, Əfrasiyab Bədəlbəyli, Soltan Hacıbəyov, Əşrəf Abbasov, Zakir Bağırov, Süleyman Ələsgərov və bir çox başqaları gənclik illərini Şuşada - "Qız qayası"nda, "Üç mıx"da, "Cıdır düzü"ndə, "Çanaqqala"da keçirmişlər.

Azərbaycan musiqi sənətinin tədqiqatçısı, görkəmli musiqişünas Firudin Şuşinski də Şuşada doğulub. Şuşanın yetişdirdiyi nadir istedadlardan biri də görkəmli incəsənət xadimi Mehdi Məmmədovdur (1918-1985). O, milli dramaturgiya, incəsənət nəzəriyyəsi və estetikaya aid bir sıra əsərlərin müəllifidir.

Azərbaycan teatr sənətinin parlaq ulduzlarından olan Barat Həbib qızı Şəkinskaya da 1914-cü ildə Şuşada anadan olub. Barat xanım İbrahim xanın nəslindəndir.

Şuşa görkəmli memarların, xəttatların, nəqqaşların, istedadlı rəssamların Vətəni kimi də məşhurdur. Müasir şuşalı rəssamlardan Cəlal Qaryağdını, Əmir Hacıyevi, Nadir Əbdürrəhmanovu və Toğrul Nərimanbəyovu göstərmək olar. Azərbaycan milli xalça sənətinin inkişafında, dünyaya tanıdılmasında şuşalı sənətkar Lətif Kərimovun müstəsna xidmətləri olub...

Şuşanın mədəniyyət paytaxtı olmasından danışırıqsa, Qarabağ muğam məktəbini də xüsusi vurğulamalıyıq. Bilirsiniz ki, Azərbaycanda bir neçə tanınmış muğam ifaçılıq məktəbi var. Muğam bütün ölkədə yayılsa da, onun əsas ocaqları özlərinin müstəqil məktəblərini yaratmış muğam yaradıcılığı mərkəzləri kimi Bakı, Şamaxı, Gəncə, Naxçıvan və Şuşa sayılır. Xüsusi maraq doğuran Qarabağ muğam məktəbi əsasən Şuşada formalaşmışdır.

Qarabağ muğam məktəbinin nümayəndələri Azərbaycan xalqının musiqi mədəniyyətini inkişaf etdirməklə, öz həmvətənlərinin ağıllarına, hiss və duyğular aləminə nəcib təsir göstərmişlər. Bu yerlərin təbiətindən keçib gələn, ruhu oxşayan həmin gözəllikdir ki, nadir musiqi mədəniyyətində öz əksini tapmışdır. Qarabağ muğam məktəbinin rəmzinə çevrilən məşhur "Qarabağ şikəstəsi" buna bariz nümunədir.

Mədəniyyət beşiyi olan bu şəhərin abu-havası məşhur yazıçı Aleksandr Dümanın "Qafqaz səfəri" əsərində də öz əksini tapmışdır. Kitabda bu yerlərin gözəlliyindən, Azərbaycan xalqının qonaqpərvərliyindən, Qarabağ xanlığından, o dövrün tanınmış şairəsi Natəvandan və s. bəhs edilir.

Şuşanı haqlı olaraq həmişə Şərqin musiqi konservatoriyası adlandırıblar. Məşhur müğənniləri dinləmək və ya ifaçılıq dərsi almaq üçün hər yerdən bura musiqi həvəskarları axışıb gəlirdilər. Lakin bu şəhər təkcə musiqiçiləri ilə şöhrət qazanmamışdır. Əsrarəngiz təbiət amili, saf, dupduru bulaqlar bu yerlərin şöhrətini daha da artırırdı. Bu diyarın ən məşhur bulağı olan İsa bulağını isə çoxları Şuşanın rəmzi hesab edirlər.

Tarixə nəzər salsaq, görərik ki, Şuşa şəhəri zəngin və şanlı tarixi keçmişə malikdir. Azərbaycan xalqının tarixi ənənələrinin simvolu olan Şuşa qədim Xocalı-Gədəbəy mədəniyyətinin (e.ə ikinci minilliyin II yarısı - birinci minilliyin əvvəlləri) əhatə dairəsinə daxil olan ən qədim yaşayış yerlərindən birində

# layiq olan ŞUŞA

yaranıb və daimi insan məskəninə çevrilib. Şuşa ətrafındakı qədim yaşayış yerləri, o cümlədən məşhur Cıdır düzündəki Şuşa mağarası (Üçmıx dağında) bu ərazinin Azərbaycanda ən qədim insan düşərgələrindən biri olduğunu sübut edir.

İngilis səyyah və alimləri C.Morye və R.Burter Şuşanın qədimliyi ilə bağlı dəyərli mülahizələr söyləmişlər. C.Moryenin fikrincə, Şuşa hələ eradan əvvəl insan məskəni olmuşdur. R.Burter isə yazır ki, "Şuşada Qafqazın başqa yerlərində olmayan Avropa şəhərlərindəki kimi daş binalar, daş döşəməli geniş küçələr, qədim Roma hamamlarını xatırladan gözəl hamam qalıqları vardır". Bütün bunlar Şuşanın hələ çox qədimdən mövcud olması haqqında fikir söyləməyə əsas verir.

### Abidələr şəhəri

Şuşanın abidələr şəhəri olduğunu söyləyən ümummilli lider Heydər Əliyev onun Azərbaycan üçün müstəsna əhəmiyyətini yüksək qiymətləndirərək bildirmişdir: "Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur".

Bir vaxtlar "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan, Azərbaycanın ictimai-siyasi həyatında mühüm xidmətləri olan bir sıra görkəmli xadimlərin vətəni, eləcə də tarixi mədəniyyət mərkəzi və Qarabağın baş tacı olan Şuşa şəhəri artıq işğaldan azad edilib.



### Əziz Şuşa, sən azadsan!

Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində dedi: "Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir. Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!".

Beləliklə, mədəniyyət paytaxtımız olan Şuşa ilə bağlı qısa qeydlərimizdən də tam aydın olur ki, Şuşa nəinki Azərbaycanın,

## "Prezident İlham Əliyevin Şuşanı Azərbaycan mədəniyyətinin mərkəzi elan etməsi olduqca mühüm qərardır"



"Şuşa Azərbaycan üçün milli qürurdur, milli mənlikdir, mədəniyyətdir, incəsənətdir, tarixdir. Şuşanın yenidən bərpası, dirçəldilməsi, tarixi simasının qaytarılması Qarabağın döyünən ürəyinin, regionun mədəniyyət mərkəzinin yenidən dirçəldiməsi demək olacaq. Bu, həm də milli qürurumuzun, mənliyimizin, mədəniyyətimizin, incəsənətimizin, tariximizin bəpa edilməsi, yenidən yüksəliş mərhələsinə daxil olması deməkdir. Bu mənada, Prezident İlham Əliyevin Şuşanı Azərbaycan mədəniyyətinin mərkəzi elan etməsi olduqca mühüm qərardır". Bunu Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

Sədaqət Vəliyeva bildirib ki, Şuşa Azərbaycan xalqı üçün milli simvoldur: "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Azərbaycanın qədim mədəniyyət mərkəzi olan Şuşa şəhərinə çox böyük qayğı göstərərək onun inkişafına çalışırdı. Ulu Öndər Şuşaya adi bir şəhər deyil, zəngin tarixi abidə, Azərbaycan xalqının qəhrəmanlıq rəmzi kimi baxırdı. Hətta, 1970-ci illərin ikinci yarısında ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə bir neçə xüsusi qərar da qəbul edilmişdi".

"Hətta, bir zamanlar "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan, bir sıra görkəmli xadimlərin Vətəni, eləcə də Azərbaycanın tarixi mədəniyyət mərkəzi və Qarabağın tacı olan Şuşa şəhəri haqqında danışan ümummilli lider Heydər Əliyev onun Azərbaycan üçün müstəsna əhəmiyyətini yüksək qiymətləndirərək bildirirdi ki, "Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə, Azərbaycan yoxdur" - deyən Sədaqət Vəliyeva əlavə edib ki, məhz Prezident İlham Əliyev Ulu Öndərimizin vəsiyyətini yerinə yetirərək azadlığına qovuşan, 270 illik tarixi olan Şuşa şəhərini yenidən bərpa edir, dirçəldir, əvvəlki şöhrətinin qaytarılması üçün yeni dövr başladır.

## İqor Korotçenko: "SSRİ Dağlıq Qarabağdakı separatçı qiyam nəticəsində dağıldı"

***Dağlıq Qarabağın Sovet İttifaqının taleyində hansı rolu var idi. SSRİ-nin dağılması prosesi oradanmı başladı? Pravda.Ru-ya videomüsahibəsində bu suala "Milli Müdafiə" jurnalının baş redaktoru, nüfuzlu hərbi ekspert İqor Korotçenko cavab verib.***

**- Tamaşaçılardan Rusiya ordusunun vəziyyəti və Dağlıq Qarabağdakı vəziyyətlə bağlı ilin nəticələrini şərh etmək üçün bir çox müraciət var...**

- Əsas odur ki, sülhməramlı əməliyyata nə qədər sürətli başladıq: 100-dən İl-76 çox ağır hərbi nəqliyyat təyyarəsi ilə sülhməramlıları köçürdük, onların oradakı xidmət şəraitlərini düzəldib hazır vəziyyətə gətirdik. Bu həm də uğurun göstəricisidir. Ümumiyyətlə, ilin nəticələri Rusiya ordusu üçün yaxşıdır. Ordu hörmətini bərpa etdi.

Ordusu olmayan bir ölkə, xüsusən ziddiyyətlərin olduğu yerlərdə mövcud ola bilməz. Və həlli çətin olan ziddiyyətləri həll etməyin yolu müharibədir. Bu səbəbdən, coğrafiyadan və təhdidlərin yalnız xaricdə deyil, həm də ölkənin daxilində həyata keçirilə biləcəyindən irəli gələn səbəblərdən güclü bir orduya ehtiyacımız var. Şimali Qafqazdakı separatçı üsyanları xatırlayırıq. Sovet İttifaqının dağılması Dağlıq Qarabağdakı separatçı qiyamla başladı.

**- İlk iğtişaşlar Qazaxıstanda 1986-cı ildə Alma-Atada başladı...**

- 1986-cı ildə millətçilik təzahürləri var idi. Qarabağ problemi Sovet İttifaqı daxilindəki ərazi bölgüsünə yenidən baxılması, bir ittifaq respublikasının bir hissəsinin digər ittifaq respublikasına verilməsi tələbi ilə başladı. SSRİ Konstitusiyasına görə bunlar 1922-ci ildə Sovet Sosialist Respublikaları İttifaqının qurulması haqqında Müqaviləni imzalayan müstəqil dövlətlər idi. Pribaltikadan xeyli əvvəl Qarabağ separatçıları Sovet İttifaqının dağılması mexanizmini işə saldılar.

Qarabağdakı hərbi əməliyyatların dayandırılmasında Rusiya mühüm rol oynadı. İndi digər bir məsələ hadisələrin necə inkişaf edəcəyidir. Paşinyanı əlində oynadanlar bu yaxınlarda onu devirəndə təəccüblə izləyəcəyik. Rusiyanın hərbi qüdrəti bizi 1999-cu ildə Yuqoslaviyada olduğu kimi məhv ediləcəyimiz, parçalanacağımız kimi ən pis ssenarilərdən sığortalayır.



**- Prezident dünyada heç kimdə olmayan, yalnız bizdə olan güclü hipersəs silahlardan danışdı. Bu hansı möcüzədir?**

- Bunlar döyüş başlıqlarını atmosferdəki bir hədəfə çatdıran raket sistemləridir. Burada hipersəsdən danışırıq. "Tsirkon" raketi hipersəslidir. Bu, Rusiya Hərbi Dəniz Qüvvələrinin gəmiləri üçün istənilən hədəfi vurmağa imkan verən bir raketdir: su üstündə, su altında və quruda. Ən əsası, onu vurma vasitəsinin olmamasıdır, yəni "Tsirkon"un sürəti o qədər yüksəkdir ki, Qərb ölkələrinin müasir gəmi havadan müdafiə sistemləri onu məhv edə bilməz.

Digər bir hipersəs silahı, MiQ-31-in daşıdığı "Kinjal" havadan atılan raketdir. Və nüvə döyüş başlıqlı hipersəs qurğusu olan "Avanqard" kompleksi. Atmosferdə gözlənilməz bir trayektoriya boyunca bir uçuş həyata keçirir və trayektoriyanı əvvəlcədən hesablamaq, onu tutmaq və vurmaq mümkün deyil. Putin hipersəsli silahlardan danışarkən, əsasən "Avanqard"ı nəzərdə tuturdu.

**- Gələcək üçün hansı tapşırıqlardan danışardınız?**

- Gələn il genişmiqyaslı strateji təlimlərimiz olacaq. Qlobal miqyasda əməliyyatları nə dərəcədə apara biləcəyimizi öyrənəcəklər. Bu yaxınlarda strateji nüvə qüvvələri üçün bir təlim keçdik. Nüvə qarşıdurması vəziyyətində əsl döyüş əməliyyatları simulyasiya edildi.

Bu təlimlər nə üçündür? Düşmən də onları izləyir. Vəziyyətin qiymətləndirilməsi var, hesabatlar var. İntiqam almaq üçün potensial düşməni məhv etməyə qadir olduğumuz müddətdə heç vaxt bizə qarşı nüvə müharibəsi başlatmayacaq. Buna görə də, bu, sığortadır.

Arktika istiqaməti inkişaf edəcək və güclənəcəkdir. Gələn il açıq şəkildə S-500 zenit raket sistemi qəbul ediləcək. Bu, Yerdən bir neçə yüz kilometr yüksəklikdə yaxın kosmosdakılar da daxil olmaqla hər cür hədəfi aşkar edib məhv etməyə qadir olan 5-ci nəsil sistemdir. Bu, həm də hərbi doktrinada əsaslı dönüşdür, Rusiyanın Amerikalılar zərbə sistemlərini kosmosa yerləşdirdikdə, döyüş əməliyyatları baş verdikdə onlara real ziyan verə biləcəyimizin göstəricisidir.

Bu cür ssenarilərə hazırlaşmaq lazımdır, çünki ABŞ praktik olaraq kosmosa silah yerləşdirməyi bacaran kimi dərhal bunu etməyə başlayacaq. Və heç bir razılaşma onlara təsir etməyəcək. Buna görə davamlı silahlanma yarışı var. Məsələ burasındadır ki, biz bu yarışda tək qalırıq və ABŞ və Avropa isə səylərini birləşdirir. Daha bir əsas təhlükə daxildədir. Bu gün əsas silah internet, insan beyninə təsirdir. Hökumət dəyişikliyinə hərbi təcavüz əvəzinə "rəngli inqilab" qərar verə bilər.

İndi insanların yaşayış səviyyəsi pisləşəcək. COVID iqtisadiyyata zərər vurur. Bu, sosial narazılığın artmasına səbəb olacaq. Vəziyyətin inkişafı üçün ssenarilər fərqli ola bilər. Buna görə Dövlət Duması xarici agentlər haqqında yeni bir qanunu, internetdə təhqirlərə dair bir qanunu və s. müzakirə edir. Çünki tərəfdaşlarımız qeyri-ənənəvi müharibə metodlarından istifadə edəcəklər. Bunlar daxili sabitliyin məhv edilməsi, dövlətin xaosu, dövlət orqanlarının nüfuzdan salınması kimi cəhdlər ola bilər.

Rusiya vətəndaşları dövlətin ədalətli olduğuna inandıqları üçün sosial ədalət bu cür meyllərin əsas məhdudlaşdırıcısı ola bilər. Səlahiyyətli orqanların belə bir siyasətə hazır olub-olmaması böyük bir sualdır. Hər halda, ölkənin taleyi bizim əlimizdədir. Və bu kollektiv məsuliyyətdir.

Bir tərəfdən elita ölkəyə rəhbərlik edir; digər tərəfdən, hər birimiz, ölkəmizin gələcəyi üçün məsuliyyət daşıyırıq, uşaqların 99% -i ölkə daxilində yaşayacaq vətəndaşlardır, onların övladları və nəvələri də yaşayacaq, biz Qərbə getməyəcəyik. Buna görə də bir-birimizə qayğı göstərməli, qayğı göstərməli və daha yaxşı bir gələcək haqqında düşünməliyik.

***Müsahibə alan: İnna Novikova***
***Tərcümə edən: Elçin Bayramlı***

# “Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!”

***Biz azərbaycanlıları - Azərbaycan Respublikasının vətəndaşlarını və dünya azərbaycanlılarını birləşdirən ideya Azərbaycançılıqdır.***

Azərbaycançılıq bizim dövlətçilik ideologiyamızdır, dəyərdir, xalqımızın qanına, geninə hopmuş həyat tərzidir. Azərbaycançılıq - Azərbaycan dövlətini qorumaqdır, vətəndaşlarımızın və dünyadakı 50 milyon soydaşlarımızın həmrəyliyidir, birliyidir. Azərbaycançılıq ideyası ölkə daxilində vətəndaşlarımızı, xaricdə isə soydaşlarımızı birləşdirir, təşkilatlandırır. Çünki ölkə daxilində güclü vətəndaş həmrəyliyinin olması ilə yanaşı, xaricdəki güclü diaspor fəaliyyəti də dövlətçiliyimizi möhkəmləndirən amillərdən biridir. Azərbaycançılıq Azərbaycanı qorumaq üçün ölkə daxilindəki dövlət və ictimai qurumların, siyasi partiyaların, yaşından, cinsindən, sosial mənşəyindən, milliyyətindən, dinindən asılı olmayaraq bütün vətəndaşlarımızın, xaricdəki diaspor təşkilatlarının, fəallarının birləşməyi, Vətənə dəstək olmaları, onun haqq səsini dünyaya çatdırmalarıdır. Hər il qeyd etdiyimiz Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür Azərbaycançılıq. Bizim mədəniyyətimizə o qədər də doğma olmayan Yeni il bayramını Həmrəylik bayramına çevirməkdir Azərbaycançılıq. Yeri gəlmişkən Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci ildə Naxçıvanda 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi elan edilmişdir. Ümummilli Liderimiz bu münasibətlə xarici ölkələrdə yaşayan soydaşlarımıza müraciətlərindən birində deyirdi: “Dünya Azərbaycanlılarının Həmrəylik Gününün dövlət bayramı kimi qeyd edilməsi xalqımızın milli azadlıq mübarizəsinin məntiqi nəticəsi olaraq artıq xoş ənənəyə çevrilmişdir. Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən həmrəylik günü hər bir azərbaycanlı üçün inam və ümid anıdır. Hal-hazırda dünyanın müxtəlif ölkələrində milyonlarla soydaşımız yaşayır, işləyir, fəaliyyət göstərir. Buna baxmayaraq, onların milli-mənəvi varlığını yaşadan yeganə bir dövlət var. Bu, müstəqil, suveren Azərbaycan Respublikasıdır. Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını da məhz Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, dininə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət, onların daim qorunmasına, yaşamasına qayğı təşkil edir”.

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onların birliyinin və həmrəyliyinin təmin olunması məqsədilə 2001-ci il mayın 23-də Heydər Əliyevin imzaladığı sərəncamla 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I qurultayı keçirildi. Qurultayda dərin məzmunlu nitq söyləyən Ulu Öndər Heydər Əliyev dünya azərbaycanlılarının milli birliyinin və həmrəyliyinin təmin edilməsi, Azərbaycan dövləti və dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi zərurəti, o cümlədən, ana dilinin, milli-mənəvi dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi haqqında fikirlərini bildirdi. “Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!” - müdrik rəhbərin bu kəlamları Azərbaycançılığın ideya əsaslarına, hər bir azərbaycanlı üçün isə milli qürur rəmzinə çevrilmişdir. Prezident İlham Əliyevin imzaladığı sərəncamlarla Bakı şəhərində 2006-cı il martın 16-da Dünya Azərbaycanlılarının II, 2011-ci il iyulun 5-6-da III, 2016-cı il iyunun 3-4-də isə IV qurultayının keçirilməsi diaspor quruculuğu işinə əsaslı töhfə vermişdir. Bu qurultaylar dünya azərbaycanlılarının birlik və həmrəyliyinin təntənəsi baxımından mühüm tarixi əhəmiyyət kəsb edir. Eyni zamanda qurultaylar bir daha dünya azərbaycanlılarının Prezident İlham Əliyevin, deməli, Azərbaycan dövlətinin, Azərbaycançılıq ideyasının ətrafında sıx birləşdiyini təsdiqlədi.



Azərbaycançılıq ideologiyası XIX əsrin sonu XX əsrin əvvəllərində təşəkkül taparaq formalaşmış və bir əsr ərzində davamlı təkamül yolu keçmişdir. XIX əsrin əvvəllərində güclənən milli dirçəliş proses bədii fikirdə və bədii söz sənətində Seyid Əzim Şirvanini, Mirzə Fətəli Axundovu, Qasım bəy Zakiri, Həsən bəy Zərdabini, Ünsizadə qardaşlarını, Əli bəy Hüseynzadəni, Əhməd bəy Ağaoğlunu, Cəlil Məmmədquluzadəni, Məhəmməd Əmin Rəsulzadəni meydana gətirdi. Onların hər biri bu ideyanın inkişafında, təkamülündə, formalaşmasında çox ciddi rol oynadılar. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ərəfəsində milli özünüdərk məfkurəsi M.Hadi, M.B.Məmmədzadə, C.Cabbarlı, Ə.Cavad, Umgülsüm, S.Mənsur, Ə.Mütəlliboğlu, Ə.Müznib, Əbdürrahman Dai, Əli Yusif kimi şair və publisistlərin əsərlərində böyük inamla ifadə olunurdu. Azərbaycançılıq milli istiqlal ideyası olduğuna görə Çar Rusiyası dağılan kimi milli düşüncəli ziyalılarımız müsəlman Şərqinin ilk demokratik, parlamentli respublikasını qurdular.

Azərbaycançılıqla bağlı önəmli məqamlar Konstitusiyada, bir sıra mühüm dövlət sənədlərində əks olunub. Tolerant və multikultural xalqımızın birliyini saxlayan Azərbaycançılıq ideyası düşmənlərimizi, rəqiblərimizi çox narahat edir. Bu birliyi pozmağa, ideoloji gərginlik yaratmağa çalışsalar da buna nail ola bilmirlər. 44 günlük Vətən müharibəsində bunun bariz nümunələrini gördük. Düşmən Ermənistan Azərbaycan türkləri ilə Azərbaycanda yaşayn digər xalqların birliyini pozmaq üçün çalışdı, çox böyük cəhdlər göstərdi, amma nail ola bilmədi. Ölkəmizdəki talışlar, tatlar, kürdlər, ləzgilər, yəhudilər, ruslar və digər xalqların nümayəndələri onlara həm sözlə, həm də silaha sarılaraq lazımi cavabı verdi.

Azərbaycançılıq ideyası vasitəsilə bizlər qloballaşan dünyada milli-mənəvi dəyərlərimizi, milli kimliyimizi qoruyub saxlamaqla yanaşı, dünya birliyinə də inteqrasiya olunuruq. Milli düşünüb bəşəri hərəkət edən Azərbaycan xalqı Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə öz varlığını qoruyub saxlayır, paralel olaraq dünya birliyinə töhfəsini verir, bəşər mədniyyətinin inkişafında aktiv rol oynayır. Ölkəmizdə bütün millətlərin və dinlərin nümayəndələri mehriban şəraitdə yaşayır, tolerantlığın Azərbaycan nümunəsini yaradır, Azərbaycanı inkişaf etdirir. Bununla bağlı Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının VI qurultayında çıxış edərkən demişdir: “Azərbaycanda vicdan azadlığı tam təmin edilir və ediləcəkdir. Bundan sonra da Azərbaycan çoxkonfessiyalı, çoxmillətli ölkə kimi uğurla inkişaf edəcək. Bundan sonra da ölkəmizdə bütün xalqların, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayacaq. Bu, bizim böyük sərvətimizdir. Bu, ölkəmizin uğurlu inkişafı üçün əsas şərtlərdən biridir, vətəndaş həmrəyliyi, vətəndaş sülhü üçün əsas şərtdir. Azərbaycanda heç vaxt milli və ya dini zəmində heç bir qarşıdurma, anlaşılmazlıq olmamışdır, bundan sonra da olmayacaq. Bu, dövlət siyasətidir və bu siyasət Azərbaycan xalqı tərəfindən tam şəkildə dəstəklənir. Azərbaycanda yaşayan bütün xalqların, bütün dinlərin nümayəndələri dəyərli vətəndaşlar kimi öz işi, əməyi ilə ümumi inkişafımıza böyük töhfələr verirlər”.

Azərbaycançılığın milli mədəniyyət, milli bədii fikir, ictimai dünyagörüşü istiqamətində də qədim tarixi vardır. Azərbaycançılıq ideologiyası ictimai dünyagörüşdən dövlətçiliyi müdafiə ideyasına, dövlət siyasətinə qalxmışdır. Yuxarıda da qeyd etdiyimiz kimi Azərbaycançılıq müstəqillik ideyasdır və Sovet imperiyası dağılan kimi xalqımız Xalq Cümhuriyyətinin varisi olan Azərbaycan Respublikasını bərpa etdi. Rəsmi ideologiya olan Azərbaycançılıq bizləri Vətəni müdafiə etməyə, dövlət millətçiliyi siyasəti aparmağa, xalqımızın inkişafına nail olmağa istiqamətləndirir. Məhz bu ideya ətrafında sıx birləşməyimizin nəticəsidir ki, 30 ilə yaxındır torpaqlarımızın işğal altında olması bizləri ruhdan salmadı, sındıra bilmədi, inamımızı sarsıtmadı. Azərbaycançılıq, Vətənçilik ideyaları ətrafında birləşən dövlətimiz, Ordumuz 27 sentyabr 2020-ci ildə əks-hücum əməliyyatına, Vətən müharibəsinə başlayaraq 44 gün ərzində işğalçı Ermənistanı, onun ordusunu darmadağın etdi. 44 günlük Vətən müharibəsi nəticəsində 30 ildir keçilməz müdafiə xətti yaratmağa çalışan erməni ordusu dəhşətli zərbə aldı. Qarabağımız azadlığa qovuşdu, həsrətə son qoyuldu, Azərbaycan xalqı müzəffər Ali Baş komandan İlham Əliyevin rəhbərliyi altında tarix yazdı.

Azərbaycançılıq müsətqillik ideyası olaraq dağılan Sovet imperiyasının külləri altından Azərbaycan Respublikasını çıxartdı, işğal altında olan torpaqlarımızın azadlığa qovuşmasına, nəticədə dövlətimizin suverenliyinin tamamlanmasına, dövlətçiliyimizin daha da möhkəmlənməsinə səbəb oldu. Bu işdə ön cəbhədə əlində silah döyüşənlərlə yanaşı, arxa cəbhədə informasiya və elmi-ideoloji cəbhədə də döyüşənlərimizin əməyi danılmazdır. Ümummilli Lider Heydər Əliyev tərəfindən konturları müəyyənləşdirilən, Prezident İlham Əliyevin praqmatik siyasətilə daha da zənginləşən Azərbaycançılıq ideyası alimlərimizin, ictimai xadimlərimizin fəaliyyəti ilə tamamlanmış oldu. Akademik Ramiz Mehdiyev “Azərbaycan: qloballaşma dövrünün tələbləri”, “XXI əsrdə milli dövlətçilik” əsərlərində bu mövzunu daha da inkişaf etdirərək azərbaycançılıq ideyasını milli ideya ilə birlikdə nəzərdən keçirmişdir. Bu birgəlikdən alınan nəticə isə belə olmuşdur: Ölkədə yaşayan bütün etnik qrupların və xalqların ümumdövlət mənafeləri əsasında birləşməsi lazımdır və labüddür. Bu gün biz həmin o birgəyaşayışın, birliyin faydalarını görürük.

Bütün bu ictimai-siyasi, elmi-ideoloji baxışlar Azərbaycançılıq ideyasının daha da dolğunlaşmasına, bu gün daşıdığı məna və məzmuna gətirib çıxartdı. İstər azərbaycançılıq dünyagörüşü, istərsə də azərbaycanşünaslıq elmi son bir əsrdə xeyli inkişaf etdi. Son illərdə isə həm Azərbaycançılıq ideyası, həm də Azərbaycanşünaslıq elmi özünün mühüm və vacib mərhələsini yaşayır.

Böyük Öndər Heydər Əliyev müstəqillik dövrünün dövlət ideologiyasını formalaşdırarkən XX əsr ziyalılarının əsərlərində milli ideya kimi türkçülüklə paralel olaraq azərbaycançılığı yeni tarixi şəraitdə milli dövlətçilik ideologiyası kimi inkişaf etdirdi, ona yeni yanaşma ortaya qoydu. Azərbaycanlı kimliyi yarandı, Azərbaycan Milli Kimliyi formalaşdı. Ötən dövrdə baş verən ictimai-siyasi, elmi-ideoloji, iqtisadi-hərbi, informasiya-diplomatiya və s. proseslər də göstərdi ki, xalqın, ölkənin müstəqilliyi azərbaycançılıqdan, milli birlikdən keçir. Bunun üçün xalq özünün bütün potensial imkanlarından istifadə etməlidir. Ölkənin zəngin iqtisadi potensialı və əlverişli geosiyasi mövqeyi buna lazımi şərait yaradır. Bu amil bu gün Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində və dövlətçilik mənafeyinin qorunmasında mühüm əhəmiyyətə malikdir. Buna görədir ki, Azərbaycanın milli maraqlarının qorunması uğrunda mübarizə indi daha planlı və daha elmi əsaslarla aparılır, inkişaf edir, yeni-yeni nailiyyətlər əldə edilir. Əminik ki, Qarabağı düşmən işğalından azad edən müzəffər Ali Baş komandan İlham Əliyevin rəhbərliyi altında güclənən Azərbaycan, daha da sıx birləşən azərbaycanlılar gələcəkdə də Azərbaycançılıq ideyasının inkişafında, ona yeni məzmun və məna qazandırılmasında mühüm rol oynayacaqlar.

***Məmməd Əliyev***
***AMEA Mərkəzi Elmi Kitabxanasının direktoru, fəlsəfə elmləri doktoru, professor***

***Mübariz Göyüşlü***
***AMEA Mərkəzi Elmi Kitabxanasının Beynəlxalq əlaqələr şöbəsinin müdiri***

# “YAŞAT” Fondu 1472 şəhidin ailə üzvünə ödənişlər həyata keçirməyə başlayıb





***“YAŞAT” Fondunun əməkdaşları ərazi bütövlüyümüzün bərpası uğrunda yaralananların və şəhid ailələrinin yaşadıqları ünvanlarına üz tutmaqla bərabər, bu kateqoriyadan olan şəxslərin ehtiyaclarını qarşılamağa davam edir. Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən SİA-ya verilən məlumata görə, şəhid İbrahimov Xeyrulla Mais oğlunun xaricdə təhsil alan övladının təhsil haqqı, şəhid Mirzalıyev Kamal Əjdər oğlunun ailəsinin isə məişət şəraitinin yaxşılaşdırılması “YAŞAT” Fonduna edilən ianələr hesabına qarşılanıb.***



İrihəcimli yardımlar da davam edir. Belə ki, müalicələri davam edən qazilərimiz üçün “GİGER” tibbi reabilitasiya avadanlığı alınıb. Müvafiq avadanlıq gün ərzində 35-40 qazimizin müalicəsi üçün istifadə olunur.

Bu günə qədər 2706 şəhidin 11 mindən çox ailə üzvü və 100-dək yaralanan şəxslə görüşlər keçirilib, onların birinci dərəcəli ehtiyacları müəyyənləşdirilib. Şəhid ailələrinin ehtiyacları ilə bağlı aparılan təhlillərin nəticəsi olaraq 1472 şəhid ailəsinin 1772 nəfər ailə üzvünə Fond tərəfindən ödənişlərin həyata keçirilməsinə başlanılıb. Belə ki, 534 şəhid ailəsinin 737 ailə üzvünün tibbi müalicə xərclərinin, 313 şəhid ailəsinin 410 ailə üzvünün borc öhdəliklərinin və 25 şəhid ailəsinin 25 ailə üzvünün təhsil haqqının ödənilməsinə, o cümlədən təhsil ilə bağlı bəzi xərclərin qarşılanmasına, eyni zamanda 600 şəhid ailəsinin məişət şəraitinin yaxşılaşdırılmasına (evin təmiri və istilik sisteminin təminatı) başlanılıb. Həmçinin yeni alınmış avadanlıq vasitəsilə 40-dan çox yaralının müalicəsi aparılır, 8 yaralıya isə mütəxəssislər tərəfindən təyin olunmuş cihazlar təqdim edilib ki, həmin avadanlıq və cihazlar vasitəsilə onların əlilliyinin aradan qaldırılması təmin olunur.

Yardımlar barədə ətraflı hesabat Fondun yaxın günlərdə istifadəyə veriləcək portalında yerləşdiriləcək. Müvafiq kateqoriyadan olan şəxslərin ehtiyaclarının qarşılanması davam etdiriləcək. Xatırladaq ki, Fondun əməkdaşlarından ibarət 69 qrup zəruri planşetlərlə təmin olunub və bütün zəruri ehtiyaclar elektron qaydada qeydə alınır. “YAŞAT” Fondunun əməkdaşları şəhid ailələrinin üzvləri və qazilərimizdən təşkil olunublar. “YAŞAT” Fondunun bank rekvizitləri ilə http://vxsida.az/az/annouces/1493 keçidi vasitəsi ilə tanış olmaq mümkündür.

## KİVDF: Qəzet redaksiyalarına 2021-ci ilin I yarısı üçün maliyyə yardımının göstərilməsi ilə bağlı müsabiqə yekunlaşıb

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 31 iyul tarixli 2957 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası”nın müsabiqəli maliyyə yardımının göstərilməsinə dair müddəalarının yerinə yetirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən qəzet redaksiyalarına 2021-ci ilin I yarısı üçün maliyyə yardımının göstərilməsi ilə bağlı müsabiqə yekunlaşıb.

Bu barədə AZƏRTAC-a Fonddan məlumat verilib.

“Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası”nda müəyyən edilmiş 19 sahə üzrə keçirilmiş maliyyə yardımı müsabiqəsinə 25 qəzet redaksiyası tərəfindən sənəd təqdim edilib.

Müsabiqə qaydalarına əsasən, müstəqil ekspertlər tərəfindən həyata keçirilmiş qiymətləndirmənin nəticələrinə uyğun olaraq 19 ictimai-siyasi qəzetin maliyyələşdirilməsi ilə bağlı qərar qəbul olunub. Fond tərəfindən 2021-ci ilin I yarısı ərzində aylıq maliyyə yardımı göstəriləcək ictimai-siyasi qəzetlərin siyahısı ilə fondun rəsmi saytında (www.kivdf.gov.az) tanış ola bilərsiniz.

## Yanvar ayında 190 manat veriləcək?



Xəbər verdiyimiz kimi dekabrın 14-dən yanvarın 18-nə kimi sərt karantin rejimi tətbiq edildiyinə görə işsizlərə 190 manat birdəfəlik müavinət verildi. Sərt karantin rejiminin yanvarın sonuna kimi uzadılması ilə bağlı iddialar var. Sərt karantin rejimi uzadılarsa yanvar ayında da 190 manat birdəfəlik müavinət verilə bilərmi?

Bununla bağlı “Sonxeber.az”-a danışan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə Əlaqələr və Kommunikasiya Şöbəsinin müdiri Fazil Talıbov bildirib ki, bu barədə hələlik rəsmi heç bir məlumat yoxdur:

“Bilirsiniz ki, karantin rejimi ilə bağlı qərarları Operativ Qərargah verir. Hələlik yanvarın 18-nə kimi sərt karantin rejimi davam edir. Yanvar ayında 190 manat birdəfəlik müavinət verilməsi ilə bağlı heç bir rəsmi məlumat yoxdur”.

## İctimai nəqliyyatda gedişhaqları artmayacaq



Aİ-92 markalı benzinin və dizelin qiymətinin artması ictimai nəqliyyatda gedişhaqlarına təsir etməyəcək. Xezerxeber.az-ın məlumatına görə, Bakı Nəqliyyat Agentliyindən bildirilib ki, şəhərdaxili sərnişindaşıma ilə məşğul olan avtobuslarda qiymətlər dəyişməyəcək. Hazırda bu məsələ gündəmdə deyil. Dövlət Avtomobil Nəqliyyatı Xidmətindən də bildirilib ki, rayonlar və şəhərlərarası sərnişindaşımada da qiymət artımı olmayacaq. Bu fəaliyyətlə məşğul olan sahibkarlara müəyyən güzəştlər ediləcək. Taksilərdə süni qiymət artımına yol verilməməsi üçün isə nəzarət tədbirləri gücləndiriləcək. “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətindən də “Xəzər Xəbər”ə bildirildi ki, bu nəqliyyat növündə gedişhaqqının artırılması hazırda gündəmdə deyil.

## Misirli tədqiqatçı dahi Azərbaycan şairi Nizami Gəncəviyə həsr olunmuş məqalə yazıb



Misirli tədqiqatçı və jurnalist Əhməd Abdo Tərabik “Şuruk” qəzetində dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəviyə həsr olunmuş geniş məqalə ilə çıxış edib.

AZƏRTAC xəbər verir ki, İslam dünyasının bəşər mədəniyyətinə dahi şəxsiyyətlər bəxş etdiyini vurğulayan tədqiqatçı Nizami Gəncəvinin orta əsrlər müsəlman Şərqində poeziya və fəlsəfi fikrin ən parlaq nümayəndələri sırasında özünəməxsus yeri olduğunu qeyd edib. “Nizami Gəncəvi İslam poeziyasının sütunlarından biri və böyük ustad idi. Mənim çalışdığım Ayn-Şəms Universitetində Misir və Azərbaycan alimlərinin iştirakı ilə beynəlxalq konfrans keçirilməsi nəzərdə tutulur”, - deyə Ə.Tərabik diqqətə çatdırıb.

Məqalədə Nizami Gəncəvinin həyatı və zəngin ədəbi irsi- “Xəmsə”yə daxil olan poemalar barədə ətraflı məlumat verilib. Müəllif qeyd edib ki, ərəb dilini də mükəmməl bilən dahi şairin əsərləri bir çox ərəb şairləri üçün də ilham mənbəyi olub. Ə.Tərabik vurğulayıb: “Orta əsrlərdə Şərq poeziyasının və fəlsəfəsinin çiçəklənməsi Nizami Gəncəvi kimi dahi şəxsiyyətlərin sayəsində baş verib. Elm və mədəniyyəti İslam aləmindən əxz etmiş və yeni sivilizasiya yaratmış Qərb şairləri və mütəfəkkirləri də bu zəngin irsdən bəhrələnib”.

# Dezinformasiyalara inanmamaq: düşmən hər fürsətdən istifadə edir

*Yaxud, ermənilərlə "Milli Şura"-AXCP cütlüyünün birgə məyusluqları haradan qaynaqlanır?*




***Sirr deyil ki, müharibənin gedişatına önəmli dərəcədə təsir edən əsas faktorlardan biri də informasiyadır. Lakin informasiyaların doğruluğu ilə əksini, yəni qeyri-doğruluğunu buraya əlavə edərsək, informasiya müharibəsi amilinin, əsasən dezinformasiyaya daha çox söykəndiyini deyə bilərik. Yəni ictimai rəy daha çox qeyri-rəsmi məlumatlara əyilir, yalanlara daha çox inandığını, hətta həmin yalanları şişirdərək, dezinformasiyaların dozasını artırmaqda maraqlı görünür. Necə deyərlər, tutar qatıq, tutmaz ayran. Ancaq bir dezinformasiyanın altında daha hansı yüklərin yatdığını da unutmaq olmaz...***

Eyni zamanda, müxtəlif dezinformasiyalar məqsədli xarakter daşıyır və hədəf əlbəttə ki, düşmənə bacardıqca çox zərbə vurmaqdan ibarətdir. Məhz həmin zərbədən sonra real informasiya ictimailəşdirilir və əsl həqiqətlər - kimin qalib, kimin isə məğlub olması faktı üzə çıxmağa başlayır.

### Düşmənin informasiya maşını da cəbhədəki köhnə, yararsız texnikaları, silah-sursatları və əsgərlərin döyüş ruhları kimi sarsıdıcı məğlubiyyətə uğradı

Digər tərəfdən, yalan informasiyalara inanıb-inanmamaq məsələsi də burada önəmli rol oynamaqdadır. Daha doğrusu, dezinformasiyanın işlənilib-hazırlanması proseduru o qədər dəqiqliklə aparılmalıdır ki, qarşı tərəf buna inanmağa məcbur olsun. Məhz ikinci Qarabağ müharibəsində ermənilərin müdafiə nazirliyinin Şuşan Stepanyan, Artsrun Ovannisyan və s. kimi sözçüləri sentyabrın 27-dən noyabırn 10-a qədər cəbhədə baş verən hadisələrə "qələbə" xarakterli don geyindirməklə, sözün əsl mənasında, erməni xalqının başına ipi salıb-dolandırmaqla məşğul oldular. Halbuki, Azərbaycan tərəfi cəbhədə irimiqyaslı hücum, əks-hücum əməliyyatları keçirməklə, demək olar ki, hər gün işğal altındakı torpaqlarımızı düşməndən azad edirdilər. Beləliklə, düşmənin informasiya maşını da cəbhədəki köhnə, yararsız texnikaları, silah-sursatları və əsgərlərin döyüş ruhları kimi sarsıdıcı məğlubiyyətə uğradı. Amma!

Amma ən əsası bu oldu ki, Azərbaycan xalqı, dövləti və Ordusu birləşərək, dəmir yumruq şəklində yalnız zəfərə, qələbəyə aparan yolda dayandı, düşmənin hər vəchlə - məsələn Peqov, Kots, Solovyov və s. kimiləri vasitəsi ilə yaymağa çalışdığı yalan informasiyalarına, ümumiyyətlə, inanmadı. İnformasiya müharibəsindəki qələbənin əsas amillərindən birini də, məhz bu reallıqla ölçmək mümkündür.

### "Milli Şura" və AXCP yetkililəri müharibə dövründə Peqovun oynadığı rolu öz üzərlərinə götürürlər

İndi isə keçək mövzunun digər tərəfinə. Sirr deyil ki, Vətən müharibəsi dövründə ağızlarına qıfıl vuran bir qrup radikal müxalifət yetkililəri, xüsusilə "Milli Şura", AXCP cütlüyü və onların xarici ölkələrdə erməni lobbisinin maliyyəsi ilə dəstək aldıqları müxtəlif sosial şəbəkə səhifələri (YouTube, Facebook, Twitter və s.) yenidən ortalığa düşərək, axıdılan şəhid qanlarına, əldə edilən müzəffər qələbəyə kölgə salmaqla məşğul olmağa başlayıblar və əsasən də oyunbazlıqlarını Rusiya sülhməramlıları üzərində qurmaqdadırlar. Bəli, bir çoxlarına məlumdur ki, Rusiya sülhməramlıları üçtərəfli razılaşma bəyanatından sonra bir sıra öhdəliklərinə düşən işləri kənara qoyaraq, əsasən ermənilərin cinahında yer alırlar, bitərəfli davranış yerinə üstünlüyü birtərəfli fəaliyyətə doğru aparırlar. Əlbəttə, bütün bunlar fiksasiya edilir və söz yox ki, Azərbaycan dövləti, rəhbərliyi lazımi anda reaksiyasını göstərir və biz artıq bir neçə dəfə bunun şahidləri olmuşuq. Hətta iqtidarın öz sözünü açıq deyən qəzeti, saytı olaraq "SƏS"də də istər Rusiya sülhməramlıları haqqında, istərsə də Azərbaycanın uğurlarına sevinməyən ölkələr, dövlət başçıları haqqında məqalələr yer alıb, narahat edən məsələlər qabardılıb. Ümidvarıq ki, bizim informasiyalarımız da diqqətdən kənarda qalmayıb və müvafiq qurumlar tərəfindən araşdırılıb, öyrənilib, çünki ortada dezinformasiya deyil, həqiqətlər dayanıb.




Lakin radikal müxalifətin psevdovətənpərvərlik artistizmləri get-gedə özünü daha cılız formada sərgiləməyə başlayıb. Sosial şəbəkələr vasitəsi ilə bütün dünyanın qəbul etdiyi qələbəmizə ləkə vurmaqla düşmənin dəyirmanına su tökür, hətta açığını desək, "Milli Şura" və AXCP yetkililəri müharibə dövründə Peqovun oynadığı rolu öz üzərlərinə götürürlər.

Adi bir detala nəzər salaq. Rusiya sülhməramlıları Xankəndidə erməni məktəblilərinə təhlükəsizlik barədə təlim keçiblər və həmin təlimdə separatçılar əsl erməni bicliyindən istifadə edərək, Rusiyanın dövlət bayrağının yanına qondarma, saxta rejimin də bayrağını yerləşdiriblər, çəkilən foto isə Rusiyanın müdafiə nazirliyinin rəsmi saytında yer alıb. Məhz Azərbaycan tərəfinin müdaxiləsindən sonra sözügedən foto saytın səhifəsindən yığışdırıldı. Yaxud, yenə də Rusiya MN-nin saytında Xankəndidə sülhməramlı həkimlərin fəaliyyəti barədə fotolar paylaşılıb və həmin fotonun üzərində "dqr" yazılıb. Növbəti müdaxilədən sonra bu səhv də dərhal düzəldildi və üzrxahlıq edildi. Bu kimi detallar kifayət qədərdir və onların hər biri bilavasitə Azərbaycan dövlətinin müvafiq qurumları tərəfindən qeydə alınır, yanlışlıqlar baş verdikdə isə, aradan qaldırılması tələb edilir və aradan qaldırılır da.

Radikal müxalifətin ermənilərlə iş birlikləri bu gün də davam edir!

Bəs psevdovətənpərvər radikallar nə edirlər? Həmin olayları qəsdən şişirdir, bu şişirtmələri bilavasitə dövlətimizin maraqları əleyhinə işlətməyə çalışırlar. Erməni KİV-ləri və sosial şəbəkə seqmentəri də dərhal həmin məsələləri öz auditoriyalarının diqqətinə çatdırır, üstəlik, Azərbaycan müxalifətinin "tam qələbə qazanılmayıb", "ruslar işğalçılıq siyasətinə başlayıblar" tipli sərsəm fikirlərini dövlətimiz əleyhinə işlətməyə başlayırlar. Nəticədə açıq-aşkar dezinformasiya, yalan məlumatlar ictimailəşdirilir. Bəli, radikal müxalifətin ermənilərlə iş birlikləri bu gün də davam edir!

Həqiqətdə isə hər şey başqadır. Dövlət başçımız İlham Əliyev çıxışında vurğulayır ki, digər ərazilərimizlə yanaşı, Xankəndi, Laçın dəhlizinə də istədiyimiz vaxtda gedib-gələcəyik və üstəlik, həmin ərazilərdə bir nəfər də olsun erməni yaraqlısı qalmayacaq. Qalacağı halda isə, 44 günlük müharibədə aldıqları zərbədən qat-qat daha ağır, sarsıdıcı zərbələrə məruz qalacaqlar. Məgər bu ifadədə gizli nə isə varmı? Əlbəttə ki, yoxdur və zaman keçdikcə, qarşıda dayanan ağır və məsuliyyətli işlər problemlərin aradan qaldırılması istiqamətində aparılacaq və hazırda da aparılır. Artıq Fizulidə beynəlxalq hava limanının tikintisi ilə bağlı Prezident İlham Əliyev tərəfindən rəsmi qərar verilib, özü də bu il ərzində! Biz Xocalı aeroportunun ermənilərin dezinformasiyalarına rəğmən, işə düşməyəcəyi faktını da buraya əlavə edə bilərik. Hansı ki, ermənilər artıq uzun illərdir ki, həmin aeroportu işə salacaqlarını bar-bar bağırırdılar, zamanımızın ən çox işlədilən sualını indi biz də səsləndirə bilərik - Bəs nooldu???

### İndi isə ən yeni faktı da nəzərə çatdıra bilərik...

Gerçəklik budur ki, ermənilərə dezinformasiyalar ötürməklə, bunu dövətimiz əleyhinə yönəldənlər xalqa, hakimiyyətə qarşı açdıqları uğursuz mübarizələrində uduzublar, ermənilər kimi!

Misal üçün, daha əvvəllər Rusiya sülhməramlılarının nəzarəti və icazəsi ilə ziyarət edilən Kəlbəcərdəki Xudavəng monastırına artıq Azərbaycan əsgərləri nəzarət edirlər. Daha dəqiq desək, oraya kimin buraxılıb-buraxılmayacağı qərarını məhz Azərbaycan hərbçiləri qərar verirlər. Bəs psevdomüxalifətçilər buna qədər nə edirdilər? Bar-bar bağırırdılar ki, həmin monastırın nəzarəti də ruslara keçib və bu, Rusiyanın "işğal siyasətinin tərkib hissəsindən biridir" (?!). Fəqət...

Fəqət bugünlərdə məlum oldu ki, ermənilərin bir qismini Kəlbəcər rayonunun Vəng kəndində yerləşən Xudavəng monastırına buraxmayıblar. Bu barədə Xudavəngi ziyarət etmək istəyən Ermənistan sakini Yevgeniya Yengibaryan öz feysbuk hesabında yazıb. "Milad günü xoşagəlməz hadisə ilə başladı. Rəfiqəm ilə Xudavəngə gedə bilmədik. Ora səfərlərin hər bazar olmasına baxmayaraq, məhz bu gün orada olmaq istədik. Bizim 40 nəfər olmağımıza baxmayaraq, həmçinin ziyarət etmək istəyənlərin sayında məhdudiyyətin olmaması bildirilsə də, bizim tərəf (Ermənistan tərəfi) yalnız 30 ziyarətçini türklərlə (Azərbaycan) razılaşdırıb. Nəticədə üçüncü avtobusdan hamını düşürdüblər. Hə, Xudavəngi ziyarət etmək düşmənlə razılaşdırmadan asılıdır. Salam, yeni reallıq. Səninlə necə barışıb və dəli olmamaq - məsələ budur", deyə o qeyd edib.

Maraqlıdır, indi həmin o psevdovətənpərvərlər haradadırlar və nəyə görə daha əvvəl səsləndirdikləri fikirlərini bu istiqamətdə təkrarlamırlar? Sərf etmir? Əlbəttə ki, sərf etmir! Çünki Xudavəngi ziyarət etməyə buraxılmayan ermənilər qədər onlar da məyus olublar. Onsuz da kimsəyə lazım olmayan ucuz, məntiqsiz və mənasız həyatları ilə kimsədə hörmət qazana bilməyən radikal müxalifət yetkililəri bu dəfə erməni aşnalarının müxtəlif qaranlıq yollarla ötürdükləri pulparaları da itirmək istəmirlər. Bax, gerçəklik də budur. Gerçəklik budur ki, ermənilərə dezinformasiyalar ötürməklə, bunu dövətimiz əleyhinə yönəldənlər xalqa, hakimiyyətə qarşı açdıqları uğursuz mübarizələrində uduzublar, ermənilər kimi. Bizə isə yalan informasiyalara inanmamaq, yalnız dövlətimizin apardığı qələbəli, zəfərli yürüşə dəstək olmağa davam etmək düşür, çünki düşmən hər fürsətdən istifadə edir və düşmən yalnız erməni deyil, eləcə də onun dəyirmanına su tökməklə məşğul olanlar da həmin düşməndən heç də fərqlənmir!

**Rövşən RƏSULOV**

# “Qaçqın və köçkünlərimiz ilk olaraq Şuşa və Ağoğlana qayıdacaqlar”



**Müsahibimiz millət vəkili Azər Badamovdur:**

***- Azər müəllim, 2021-ci ilin dövlət büdcəsindən Xankəndinə, Ağdərəyə, Xocavəndə və digər işğal altında olmuş Azərbaycanın şəhərlərinə vəsaitlərin ayrılması nəzərdə tutulurmu?***

- Dövlət büdcəsində işğaldan azad olunmuş rayonları üçün işğal altında olan vaxtında da həmişə vəsait nəzərdə tutulurdu. Çünki, həmin rayonların dövlət qurumları da ümumi insanları kimi qaçqın vəziyyətində idi və respublikamızın başqa rayon və şəhərlərində yerləşdirilmişdi. 2021-ci ilin dövlət büdcəsində həmin rayonlara ayrılan vəsaitlər yenə də öz əksini tapmışdır. Əgər işğaldan azad olunana qədər həmin rayonların dövlət strukturları başqa şəhər və rayonlarda fəaliyyət göstərirdilərsə, indi yenidənqurma və bərpa işləri davam etdikcə mütəmadi olaraq öz doğma torpaqlarında fəaliyyətlərini davam etdiriləcəkdir. Bundan əlavə 2021-ci ilin dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün ümumi şəkildə 2.2 milyard manat nəzərdə tutlmuşdur. Bu vəsait isə hansı rayonlara birinci mərhələdə həyatın qaytarılması planlaşdırılırsa həmin istiqamətlərdə sosial infrastrukturun və yaşayış yerlərinin bərpasına istiqamətlənəcəkdir.

***- Xankəndinə azərbaycanlıların köçürülməsinə nə zaman start veriləcək və hazırda onların sosial vəziyyətinin yaxşılaşdırılması, iş yerlərinin yaradılması üçün hansı işlərin görülməsinə başlanılıb?***

- Xankəndinə azərbaycanlıların qaytarılması bir az uzun çəkən proses olacağını düşünürəm. Bu ərazilərimizə azərbaycanlıların qayıtması işğaldan azad olunmuş digər ərazilərimizdən fərqli şəkildə olacaqdır. Çünki, Dağlıq Qarabağın ermənilər yaşadığı ərazilərimizə vətəndaşlarımızın qaytarılması beynəlxalq normalara uyğun həyata keçirilməlidir. Bu məsələ 10 noyabrda imzalanmış üçtərəfli bəyanatda da xüsusi maddə ilə öz əksini tapmışdır. Bəyanatın 7-ci maddəsində qeyd olunur ki, daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağ ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır. Yəni, bu məsələni reallaşdırılması üçün həmin ərazilərdə təhlükəsiz yaşayış təmin olunmalıdır. Bu məsələlərə qədər biz təcili olaraq Şuşaya və ermənilərin yaşadığı şəhər və rayonların ətrafındakı yaşayış məntəqələrimizi bərpa etməliyik, yaşayışı qaytarmalıyıq. Dağlıq Qarabağın ermənilərin yaşadığı ərazilərin bütün ətrafı azərbaycanlılarla məskunlaşandan sonra xalqların adaptasiyası mərhələsi olacaqdır. Yəni, yavaş-yavaş gediş-gəliş yaranacaq, xalqlar bir-biri ilə qonşu kimi yaşamağa öyrəşəcəklər. Bu adaptasiya mərhələsi keçəndən sonra üçtərəfli bəyanatda qeyd olunduğu kimi BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında azərbaycanlıların Xankəndinə və digər ermənilərin məskunlaşdığı ərazilərimizə qayıtmasının mümkün olacağını düşünürəm.

***- Qarabağda quruculuq abadlıq işlərinin həyata keçirilməsində hansı ölkələr iştirak edəcək?***

- Qarabağda quruculuq işlərinin həyata keçirilməsində bizə dost, Vətən müharibəsi günlərində bizi dəstəkləyən ölkələrin şirkətləri və ya ölkələr iştirak edəcəkdir. Artıq Türkiyənin şirkətləri həmin ərazilərdə bərpa işlərində iştirak edir. İtaliya hökuməti ilə bu istiqamətdə anlaşma imzalanmışdır və tezliklə İtaliya şirkətləri də bu işlərə cəlb olunacaqdır. Gələcəkdə isə işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası prosesində iştirak edə biləcək bizə əsil dost münasibət bəsləyən ölkələrin siyahısının genişlənə biləcəyini düşünürəm.

***- Qarabağdakı quruculuq işlərində həmsədr ölkələr olmuş Rusiyanın, Fransanın və ABŞ-ın şirkətlərindən varmı?***

- Əvvəla qeyd edim ki, Qarabağdakı quruculuq işləri dövlət vəsaiti hesabına həyata keçiriləcəkdir. Azərbaycan kifayət qədər iqtisadi resurslara malikdir ki, işğaldan azad olunmuş ərazilərimizi bərpa edək. Hazırda işğaldan azad olunmuş ərazilərimizn yenidən qurulması və bərpasında qeyd etdiyiniz ölkələrin şirkətləri yoxdur. Amma hansı ölkələrin şirkətlərinin iştirak edilməsinə imkan yaradılacağını isə dövlət başçısı hamımızdan yaxşı bilir. Dövlət başçımız Vətən müharibəsində tarixi qələbənin qazanılmasının ən böyük qəhrəmanıdır. O, 44 günlük müharibə dövründə hansı ölkələrin yanımızda olduğunu hamıdan yaxşı bilir. Ona görə də, məhz dövlət başçımızın məsləhət bildiyi ölkələrin şirkətləri Qarabağdakı quruculuq işlərində iştirak edə biləcəklərini düşünürəm.

***- Ümumiyyətlə, Şuşaya, Ağoğlana (Hadrut), Xocalıya və digər ərazilərimizə insanların ilkin köçürülməsinə nə zaman başlanılacaq?***

- Şuşaya və Ağoğlana cari ilin ortalarında qaçqın və köçkünlərimizin qayıda biləcəyini düşünürəm. Artıq Şuşaya gedən yolun yenidən qurulması işləri sürətlə aparılır. O cümlədən, Şuşa şəhərində əmlakın siyahıya alınması, vəziyyətin dəyərləndirilməsi işlərinin aparılması üçün müxtəlif sahələrin mütəxəssislərindən ibarət işçi qrupu fəaliyyət göstərir. Şuşa şəhərinə dövlət qurumların köçürülməsi prosesi təşkil olunmuşdur. Düşünürəm ki, bu yaxınlarda Şuşalılar öz doğma Şuşa şəhərinə qayıda biləcəklər. O cümlədən, Ağoğlana da tezliklə azərbaycanlılar qayıda biləcəklər. Xocalının ermənilərin yaşadığı ərazilərimizə isə azərbaycanlıların qayıdışı yuxarıda qeyd etdiyim kimi bir az uzun çəkən proses olacağını düşünürəm. Sonda qeyd edim ki, Azərbaycanın bütün əraziləri işğaldan azad olunmuşdur. Dağlıq Qarabağın bir hissəsində ermənilər yaşadığına görə sülhməramlıların nəzarəti altında olduğundan bu ərazilər tam nəzarətimizə keçməmişdir. Amma bununla yanaşı qeyd etmək istəyirəm ki, azad olunmuş 7 rayona və o cümlədən Dağlıq Qarabağın bizim nəzarətimiz altında olan əraziləri bərpa edilərək qaçqınlarımız qayıtdıqdan sonra digər ərazilərimizə də tədricən qayıdacağıq. Qarabağ Azərbaycandır!

**Gülyana**

# Musa Qasımlı: Dirçəlişdən sonra Qarabağ dünyanın ən gözəl regionlarından biri olacaq



“Azərbaycan Prezidenti İlham Əliyevin 2021-ci ildə imzaladığı ilk Fərman da əvvəlkilər kimi ürəyimizdən oldu. Koronavirus pandemiyası ilə ələqədar dünya üçün çətin olan 2020-ci ili işğal altında olan ərazilərimizi düşmən əsarətindən azad etməklə millətimiz və dövlətimiz üçün yaxşı ilə çevirən Prezident İlham Əliyev yeni ilin ən gözəl müjdəsini verərək “Qarabağ Dirçəliş Fondu” publik hüquqi şəxsin yaradılması barədə Fərman imzalayıb. Hazırda dövlətimizin Qarabağ siyasətinin konkret təzahürü olan bu Fondun xətti ilə mərkəzləşdirilmiş qaydada görüləcək işlər nəticəsində ərazilərimiz tamamilə yenidən qurulacaq, orada infrastruktur yaradılacaq, müasir şəhər, qəsəbə və kəndlər tikiləcək, bölgəyə dinc, təhlükəsiz, rahat həyat gələcək, məcburi köçkünlərimiz daimi yaşayış yerlərinə qayıdacaqlar. Dirçəliş prosesində yeni iş yerləri açılacaq, ölkə həyatının bütün digər sahələrində də sürətli inkişafa nail olunacaq. Bütün bunlar insanların həyat şəraitinin daha da yaxşılaşdırılmasına da töhfə verəcək”. Bu fikirləri Milli Məclisin deputatı Musa Qasımlı deyib.

Musa Qasımlı bildirib ki, millətimizin və dövlətimizin tarixində örnək olan bu Fondun yaradılması təkcə bu günümüz üçün deyil, gələcək nəsillər üçün də əhəmiyyətlidir. Hər şeydən əvvəl, əgər müharibə günlərində millətimizin birlik rəmzi olan “dəmir yumruq” hamını birləşdirib düşmənin başını əzmişdisə, indi bu yumruq dünyanın harasında yaşamasından asılı olmayaraq, millətimizin nümayəndələrini Qarabağın xarabazarlıqdan xilas edilib dirçəldilməsi və dinc quruculuq işləri ətrafında yenidən birləşdirir. Atalar yaxşı deyib ki, dirilik birlikdədir.

Millət vəkilinin sözlərinə görə, insanlarımızın həmin Fonda böyük həvəslə müəyyən məbləğdə vəsaitlər köçürmələri təkcə maddiyyatla bağlı olmayacaq, eyni zamanda, millimənəvi birliyimizi möhkəmləndirəcək, Vətən, torpaq, yurd sevgisini daha da artıracaq. Fondun hesabına vəsait köçürənlər bərpada paylarının olması ilə fəxr edəcəklər. Tarixən belə olub: əsgər canı, qanı, digəri əməyi, başqa birisi maddi vəsaiti, sözü ilə Vətənə və dövlətə xidmət edib. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə şanlı Ordumuz artıq öz sözünü deyib. İndi söz dirçəldənlərin, bərpaçıların, bütün millətindir. Torpaqlarımızın işğaldan azad edilməsi üçün təqribən 30 il gözləmişdiksə, inanıram ki, dövlətimizin başçısının liderliyi ilə Qarabağın dirçəldilməsi çox qısa müddətdə olacaq. Bu prosesin tez başa çatması bizlərin də iştirakından asılıdır.

“Dədə-babalarımızın gözəl sözləri var: “El gücü sel gücüdür”, “El bir olsa, dağ oynadar yerindən”. O zaman hamını bu Fondun açılacaq hesabına imkanları daxilində vəsait köçürməyə səsləyirəm. Dirçəlişdən sonra Qarabağ, Prezident İlham Əliyevin dediyi kimi, dünyanın ən gözəl regionlarından biri olacaq. Ölkəmizin çox gözəl gələcəyi var!”, - deyə M.Qasımlı vurğulayıb.

# Dövlət Xidməti: Əsassız qiymət artımına qarşı nəzarət gücləndirilir



Məlum olduğu kimi, Aİ-92 avtomobil benzininin və dizel yanacağının pərakəndə satış qiymətləri üzrə tarif tənzimlənməsi aparılıb və 5 yanvar tarixindən yeni tariflər tətbiq edilir. Dizel yanacağının qiymət artımının kənd təsərrüfatı sahəsinə təsiri nəzərə alınaraq, hökumət tərəfindən ayrılan subsidiyalar artırılacaq.

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətindən SİA-ya verilən məlumata görə, tarif dəyişikliyindən sui-istifadəyə və əsassız qiymət artımına yol verilməsinin vaxtında müəyyən edilməsi və qarşısının alınması məqsədi ilə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən mütəmadi aparılan monitorinqlərin intensivliyi daha da artırılıb.

Dövlət Xidməti sahibkarların nəzərinə çatdırır ki, nəzarət tədbirləri zamanı qanun pozuntusu halları aşkar edilərsə, qanunvericilikdə nəzərdə tutulmuş ciddi məsuliyyət tədbirləri görüləcək. Bu hallar üzrə cinayət tərkibli əlamətlər müəyyən olunduqda isə, toplanmış materiallar aidiyyəti üzrə hüquq mühafizə orqanlarına göndəriləcək. İstehlakçılar istehlak bazarında sui-istifadə və əsassız qiymət artımı halları ilə rastlaşdıqda, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə müraciət edə bilərlər (tel:498-15-01, 498-15-04).

# Azərbaycanda bələdiyyə torpaqlarına görə vergi ödənilməsi qaydası dəyişdi

Prezident İlham Əliyev “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında qanun”da dəyişiklik edilməsi barədə qanunu imzalayıb.



Xezerxeber.az xəbər verir ki, dəyişikliyə əsasən, bundan sonra digər təyinatlı bələdiyyə torpaqları üzrə torpaq sahəsinin hər 100 kvadratmetrinə görə verginin məbləği Vergi Məcəlləsi əsasında müəyyən ediləcək. İndiyə qədər həmin məbləğ ləğv olunmuş şərti maliyyə vahidinin (1,1 manat) müəyyən misli ilə müəyyən olunurdu.

# Armen Sarkisyan korona deyil, Livana Elton Conla kefə gedibmiş...

## Erməni mediası anti-Paşinyançı prezidenti də belə vurdu

***Ermənistan prezidenti Armen Sarkisyanın "koronavirusa yoluxaraq özünütəcrid vəziyyətinə keçməsi" informasiyası ictimailəşdirildikdən sonra məlum oldu ki, demə o, Livana gedərək, orada İsa Məsihin mövlud bayramını keçirmək niyyətindədir. Özü də Britaniyanın erməni mənşəli milyarderi Vaşe Manukyanın şəxsi təyyarəsi onun xidmətində dayanıb. Üstəlik, Sarkisyanın iştirak edəcəyi bayrama cinsi azlıq nümayəndəsi kimi tanınan britaniyalı müğənni Elton Con da qatılacaq. Artıq erməni mediası bu haqda yazır, sosial şəbəkələrdə hiddətli rəylər qeyd edilir və s.***



SİA xəbər verir ki, bu haqda Armenianreport da yazıb. Sözügedən məqalədə bildirilir ki, artıq Azərbaycan Prezidenti Qarabağda beynəlxalq aeroport tikmək üçün qərar verib ermənilərin prezidenti isə koronavirusa yoluxduğunu elan edir, ancaq sonradan məlum olur ki, o, Elton Conla təmtəraqlı istirahətdədir.

"Ermənistan prezidenti Armen Sarkisyan koronavirusa yoluxub və özünütəcrid vəziyyətdədir, "Armenpress" agentliyi xəbər verir. İnformasiyaya görə, Armen Sarkisyan yeni ili yanvarın 3-də ayağının əməliyyat olunduğu Londonda keçirib. Lakin prezidentdə koronavirus simptomları əmələ gəlib. Onun keçdiyi test isə müsbət nəticə göstərib", deyə yazan Armenianreport "Dejavyu" telegram kanalına da istinad edib və oradakı məlumatı da xatırladıb. "Prezident varlı britaniyalı iş adamı Vaşe Manukyanın şəxsi təyyarəsində ölkəni tərk edib. Sarkisyan bayramı Vaçe Manukyanın Livanın məşhur Fakra turistik bölgəsində yerləşən villasında keçirəcək", deyə qeyd edilən xəbərdə bildirilir ki, mövlud bayramını onlarla bir yerdə Elton Con da keçirmək niyyətindədir: "Məşhur müğənni Elton Con da onlarla öz istirahətini keçirəcək. Ermənistan prezidentinin Elton Conun əhatə dairəsində mövlud bayramı ilə bağlı Livana getməsi xəbəri ictimaiyyətdən ciddi şəkildə qorunur və sirr saxlanılır", "Dejavyu" yazıb.

### "Bizim prezidentin siyasi orientasiyasında yeni spekulyasiyalar arzuolunan deyil"

Beləliklə, adıçəkilən sayt yazır ki, bu informasiya sirr olaraq saxlanılır. SİTAT: "Bəllidir nəyə görə. Bizim prezidentin siyasi orientasiyasında yeni spekulyasiyalar arzuolunan deyil. Həm də ümumiyyətlə, belə olanda onun koronavirusa yoluxmasını xəbər vermək daha asandır. Bu, ona hesablanıb ki, prezidenti heç kim yoxlamayacaq, eyni zamanda, yayındırmaq məsələsi də kifayət qədər işgüzar alınıb. Burada yalanın kimin tərəfindən işlədilməsi də əhəmiyyətli deyil. Ona görə ki, dünyanın müxtəlif ölkələrinin prezidentlərinin təcrübəsindən bəllidir ki, hətta özünütəcrid şəraitində işləmək olur. Heç olmasa videomüraciət formatında bəyanatların verilməsi və ya həmkarları ilə teefon danışıqlarının aparılması fonunda. Lakin məhz bu məsələdə sübut olunur ki, biz ona adət etmişik. Biz ona adət etmişik ki, bizə yalan danışırlar".

### "Hər kəs yalan danışır. Fərq yalnız yalanın miqyasının sayındadır"

Hakimiyyətin yalan danışdığını, xüsusilə prezident Armen Sarkisyanın timsalındakı məsələnin təhlilinin davamını aparan armenianreport daha sonra qeyd edir. SİTAT: "Hər kəs yalan danışır. Fərq yalnız yalanın miqyasının sayındadır. Üstəgəl, indi Nikol Paşinyanı birmənalı olaraq ittiham etmək dəbə minib. Bəli, o baş nazir postunu tutur, cəmiyyətdə dəhşətli, kədərli, apatiya fonunun yaranması baxımından əsas və şəxsi cavabdehlik daşıyır. Ancaq bizdə, Ermənistanda başqa heç kim yoxdurmu?

Həmin prezident Sarkisyan - o nə üçündür? O müharibə vaxtı özünü necə apardı? Heç cürə. Nə qədər kinayəli səslənsə də, bütün bu situasiyalar, bütün ümummilli fiasko onu qane edirdi. Bulanıq suda balıq tutmaq hər zaman rahat olur. Armen Sarkisyan isə, hətta baş nazir kreslosunu tutmaq planını gizlətmədi də. O, Paşinyanı tənqid edənlərin sırasına sevinclə qatılaraq "doğru nitqlər" səsləndirdi. Sanki Sarkisyan ilk gündür siyasətdədir. Sanki o iqtisadiyyatdakı, ordudakı, Qarabağ məsələsindəki real vəziyyətdən bixəbər idi. O hər şeydən xəbərdar idi. Ancaq bunu büruzə etmirdi".

### "Əliyev isə açıq şəkildə Şuşanın və digər torpaqların bərpası planlarını bəyan edir. Hanı Sarkisyanın reaksiyası?"

Armenianreport bütün bunların fonunda Azərbaycanın təsirlərini artırdığını yazır və ərazilərin təhvil verilməsini qeyd edir. "Əliyev isə açıq şəkildə Şuşanın və digər torpaqların bərpası planlarını bəyan edir", yazan adıçəkilən erməni saytı Azərbaycan Prezidentinin Füzulidə beynəlxalq hava limanının tikilməsi barədə qərar verdiyini xatırladır və eyni zamanda bildirir ki, yanvar ayında Azərbaycana İSESKO missiyası gələcək və ərazilərə baş çəkəcək, ermənilərin müsəlman qəbirlərini, məscidlərini dağıtmaları barədə danışacaqlar.

"Hanı Armen Sarkisyanın reaksiyası? Axı o belə bir zamanda, ölkə qarşısındakı problemlər və çağırışların olduğu bir vaxtda, ümumiyyətlə, özünə istirahət etməyi necə qıyır? Suallar bir qalaqdır. Cavablar yoxdur...", erməni saytı yazır.

Bütün bunlardan isə yalnız bir nəticə hasil etmək olar. Bu gün Ermənistanda kimin-kim olması reallığı tamamilə yox olub və o cümlədən, hakimiyyətlə yanaşı, hətta Paşinyanı və komandasını süpürərək siyasi səhnədən silməyə çalışan müxalifət liderləri də, əslində keçmiş iqtidarın təmsilçiləri olaraq hazırkı baş nazirdən revanş almaq məqsədi güdürlər. Onları da Ermənistanın düşdüyü bu vəziyyət, ümumiyyətlə maraqlandırmır. Əgər nəzərə alarsaq ki, qarşıda bu ölkəni daha ağır fəsadlar, böyük aclıq və qıtlıqlar gözləyir, bu zaman Ermənistanın siyasi idarəçiliyinin tamamilə öz oxu ətrafından çıxıb, dövlətçilik təməllərinin birdəfəlik məhv olacağını proqnozlaşdırmaq elə də çətinlik yaratmır. Təkcə, Armen Sarkisyanın anti-Paşinyançı dairələrinin yanında dayanmasına rəğmən, ölkənin ağır və çıxılmaz halda olmasına baxmayaraq Livanda "koronavirus təcridi" adı altında bayramlara qatılması da, əslində bu cür qənaətlərə gəlməyə kifayət qədər məzin yaratmaqdadır.

**Rövşən RƏSULOV**

# Dünya Bankı Ermənistanla bağlı bədbin proqnozlar verdi




Dünya Bankı 2020-ci ildə Ermənistanda iqtisadi yavaşlama proqnozunu bir qədər də aşağı salıb, 2021-ci il üçün də nikbin proqnozlar verməyib. SİA Ermənistana məxsus armenianreport.com satında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə Dünya Bankının çərşənbə axşamı yayımladığı "Dünya iqtisadiyyatının perspektivləri" (Global Economic Prospects) hesabatında bildirilib.

Dünya Bankı, Ermənistan iqtisadiyyatının 2020-ci ildə 8 % azalacağını, 2021-ci və 2022-ci illərdə bunun mənfi təsirlərini proqnozlaşdırıb.

Eyni zamanda xatırladılır ki, İyun Qlobal İqtisadi Perspektivlər hesabatında Dünya Bankı 2020-ci ildə Ermənistan iqtisadiyyatının 5,2%, 2021-ci ildə daha 1,8% azalacağını proqnozlaşdırırdı.

"Pandemiya və münaqişə şoklarının zəifləməsi, bununla da turizmin bərpa edilməsi, istehlakçı və işgüzar inamın artması ilə Cənubi Qafqaz alt bölgəsində 2021-ci ildə artım proqnozlaşdırıla bilər.

Azərbaycanda fəaliyyətin proqnozlaşdırılan dövrdə neft qiymətlərinin sabitləşməsi və iqtisadiyyatın investisiya və yenidənqurma xərclərindən faydalanması ilə genişlənəcəyi gözlənilir. Ermənistanla Azərbaycan arasındakı sülhsevər bir bəyanatın bölgədəki geosiyasi gərginliyin azaldılmasına kömək edəcəyi gözlənilir", deyə hesabatda bildirilir.

***İnam Hacıyev***

# ArmVoice: "Hakimiyyət KİV-lərə qarşı terror həyata keçirir"

Ermənistan KİV-ləri ölkə rəhbərliyinin kapitulyasiya aktına imza atmasını, eləcə də çox sayda əsirlərin götürülməsi, həmçinin müharibədə ölənlərin sayının gizlədilməsi faktlarını ifşa etdikləri üçün hakimiyyət tərəfindən terrora məruz qaldıqlarını bildirirlər. Maraqlıdır ki, bu məsələdə nəinki Nikol Paşinyan və onun komandası, eləcə də arvadı Anna Akopyanın da canfəşanlıq etdiyi qeyd olunmaqdadır.

Digər tərəfdən, ermənilərin telegram kanallarının əksəriyyəti bu faktı işıqlandırır, eləcə də digər faktları ictimailəşdirirlər, bildirirlər ki, artıq bir sıra iqtidarı tənqid edən KİV-lər üzərindən çarpaz xətlər çəklib. SİA xəbər verir ki, ermənilərin ArmVoice telegram kanalının yazdığına görə, artıq hakimiyyət açıq şəkildə ona rahatsızlıqlar yaradan KİV-lərə müharibə elan edib.

"Paşinyanın yeni il müraciətini yayımlamaqdan imtina edənlərə daha güclü təzyiqlər olacaq"

SİTAT: "Onlar təbliğat maşınına yaxın olan öz adamları üzərindən və sosial şəbəkələrdəki müxtəlif qruplar vasitəsi ilə həmin KİV-lərin adlarını dərc edir və istifadəçiləri onları təhqir etməyə səsləyirlər. Ən "istedadlı" və sadiqlər isə açıq şəkildə bəzi televiziya kanallarını lisenziyalardan məhrum etməklə hədələyirlər. Xüsusilə, Paşinyanın yeni il müraciətini yayımlamaqdan imtina edənlərə daha güclü təzyiqlər olacaq".




Adıçəkilən telegram kanal yazır ki, bir müddət əvvəl Ermənistanın ərazi idarəetmə və inkişaf naziri Suren Papikyan onun erməni kilsəsi və katolokosuna qarşı keçirilən aksiyalarla bağlılığının olması barədə yazan bütün KİV-ləri məhkəməyə verəcəyi ilə hədələyib.

**Rövşən RƏSULOV**

# 2020-ci il: Qələbəyə aparan yol nədən və hardan keçdi?

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

## İlham Əliyev: "Biz bütün şəhərlərimizi, kəndlərimizi bərpa edəcəyik, Qarabağda cənnət yaradacağıq"

2020-ci il tarixdə Azərbaycanın Qələbə ili və işğal olunmuş torpaqlarını düşməndən azad etməsi ili kimi qaldı. Azərbaycan ordusu cəmi ay yarım ərzində Ermənistan ordusunu tamamilə darmadağın edərək Qarabağı düşməndən azad etdi. Bu müharibədə ordumuz, dövlətimiz və xalqımız böyük həmrəylik nümayiş etdirərək birgə mübarizə aparaq bu şanlı qələbəni təmin etdi. 2021-ci il isə Qarabağda bərpa və quruculuq ili olacaq. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, qısa müddətdə şəhərlərimiz kəndlərimiz, infrasturktur bərpa olunacaq, məcburi köçkünlər öz yurdlarına qayıdacaq, bölgənin sosial, iqtisadi, mədəni inkişafı başlayacaq. Bəs bu Qələbənin səbəbləri nədə gizlənir? Bu yazıda Qələbəyə aparan yolları göstərməyə çalışacağıq.

Qələbənin necə əldə edildiyini bilmək üçün əvvəlcə 1-ci Qarabağ müharibəsində Azərbaycanın məğlub olmasının səbəblərinə baxmaq lazımdır. Bu səbəbləri Prezident İlham Əliyev göstərib: "Biz 1-ci Qarabağ müharibəsində torpaqlarımızı ona görə itirdik ki, o vaxtkı Azərbaycan rəhbərliyi öz vəzifə borcunu yerinə yetirə bilmirdi. 1992-ci ildə Şuşanın, Laçının, 1993-cü ilin aprelində Kəlbəcərin işğal altına düşməsi faktiki olaraq Dağlıq Qarabağla Ermənistan arasında coğrafi bağlantı yaratdı və ondan sonra digər torpaqların işğalı qaçılmaz idi. Ordumuz demək olar ki, dağılmışdı, nizami ordu yaradılmamışdı, cəsarətli, qəhrəman övladlarımız, sadəcə olaraq, qəhrəman kimi vuruşaraq şəhid olurdular, torpaqlarımız əldən gedirdi. Gücümüz yox idi..."

## Böyük Qələbəni təmin edən güc necə formalaşdırıldı?

Səbəbin ən qısa tərifi budur. Onda gücümüz yox idi, indi isə var. Və gələk bu müddətdə ölkəmizin bu gücü necə əldə etməsinə. Dövlət başçısı bu məsələləri belə ifadə edib: "Mən bunu hələ 10 il bundan əvvəl proqnozlaşdırırdım, ona görə güc toplamaq üçün bütün imkanlar səfərbər edildi. Güc isə iqtisadiyyatdır. İqtisadiyyat güclü olmasa hərbi gücdən, siyasi gücdən söhbət gedə bilməz. Biz iqtisadi müstəqillik yaratmalı idik və yaratdıq. Azərbaycan iqtisadi cəhətdən heç kimdən asılı deyil.

İqtisadi müstəqillik siyasi müstəqilliyimizi gücləndirdi, daha da cəsarətli siyasət aparıldı. O siyasət ki, yalnız və yalnız Azərbaycan xalqının maraqlarına xidmət edir... Güc toplamaq üçün əlbəttə ki, düzgün siyasət aparılmalıdır. Son 17 il ərzində böyük layihələri icra etdik. İqtisadi inkişaf templərinə görə son 17 il ərzində Azərbaycan dünya miqyasında 1-ci yerdədir.

Eyni zamanda, biz öz siyasətimizlə Ermənistanı zəiflətməli idik və bunu gizlətmirdik. Mən bunu təkcə bu gün demirəm, 10 il bundan əvvəl demişdim, nə qədər ki, torpaqlarımız işğal altındadır, biz Ermənistanı bütün regional təşəbbüslərdən, bütün regional layihələrdən məhrum edəcəyik, onları təcrid edəcəyik və bunu etdik. Baxın indi Avrasiyanın enerji, nəqliyyat, kommunikasiya xəritələrinə, ölkələri birləşdirən bütün o yollar, ölkələr üçün böyük fayda gətirən layihələr Ermənistandan yan keçib... Ermənistanı zəiflətmək üçün müxtəlif yollardan istifadə etdik...

Biz heç nəyi hansısa məxfi formatda etməmişdik. Demişdim ki, təcrid edəcəyik, etdik, neft kəmərləri, qaz kəmərləri, nəqliyyat yolları Ermənistandan yan keçdi, telekommunikasiya xətləri Ermənistandan yan keçdi, elektroenergetika layihələri Ermənistandan yan keçdi. Ermənistan mümkün olan gəlirlərdən məhrum edildi".



## Siyasi-diplomatik müharibədə qələbə necə əldə edildi?

İqtisadi müharibə uğurla başa çatdırılmışdı. Lakin müharibənin əsas cəbhələrindən biri də siyasi-diplomatik müharibə idi ki, burada da Azərbaycan qələbəni təmin etdi. Ölkə başçısı öz çıxışında bunu belə ifadə edib: "Ermənistanı beynəlxalq arenada ifşa etmək, onların işğalçılıq siyasətini dünya ictimaiyyətinə çatdırmaq başlıca vəzifələrimizdən biri idi və buna nail olduq. Son 17 il ərzində demək olar ki, bütün aparıcı beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləyən qərar, qətnamələr qəbul ediblər. BMT Baş Assambleyası, hətta Avropa Şurası və Avropa Parlamenti kimi hər zaman anti-Azərbaycan mövqeyində dayanan təşkilatlar da məcbur olub münaqişə ilə bağlı həqiqəti əks etdirən qətnamələr qəbul etmişlər.

Biz Qoşulmama Hərəkatına üzv olduq. Yadımdadır, o vaxt bəziləri bunu səhv addım kimi qiymətləndirirdi. Ancaq mən bilirəm ki, bu, düzgün addım idi. Üzv olan kimi, dərhal 120 ölkənin dəstəyi ilə münaqişəyə dair qətnamə qəbul etdirdik - bizim maraqlarımıza xidmət edən qətnaməni. Müharibə zamanı BMT Təhlükəsizlik Şurasında münaqişə ilə bağlı bizə sərf etməyən qərəzli anti-Azərbaycan təşəbbüslərinin qarşısının alınmasında Qoşulmama Hərəkatına üzv ölkələr öz sözünü dedi. Bu təşəbbüs baş tutmadı.

Biz İslam Əməkdaşlıq Təşkilatı ilə sıx əlaqələr qurduq. Tarixdə bu gün bu əlaqələr ən yüksək zirvədədir. İslam Əməkdaşlıq Təşkilatı bu münaqişə ilə bağlı düzgün, həqiqəti əks etdirən, beynəlxalq hüququ əks etdirən qətnamələr qəbul etdi.

Biz regionda qonşu ölkələrlə sıx münasibətlər qurduq. Çünki əvvəllər nədənsə hesab olunurdu ki, regionda Azərbaycanın ənənəvi müttəfiqləri var və Ermənistanın ənənəvi müttəfiqləri var. Biz bu konsepsiyanı darmadağın etdik. Bu gün qonşularımızın hamısı bizim yaxın dostlarımızdır. Bizim bütün qonşularımızla həm ikitərəfli, həm üçtərəfli formatda çox gözəl əməkdaşlığımız var. Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-İran-Türkiyə, Azərbaycan-İran-Rusiya üçtərəfli formatları var. Ermənistanın hər hansı ölkələrlə bu formatı varmı? Yoxdur. Bu, bizim siyasətimizin düzgün olmasının bariz nümunəsidir...

Hər zaman öz siyasətimizi açıq aparmışıq. Heç bir ölkəyə qarşı heç bir avantürada yer almamışıq. Demişdim ki, Azərbaycan ərazisindən heç bir ölkəyə qarşı, o cümlədən, ilk növbədə, qonşulara qarşı heç bir təxribat xarakterli addım, təşəbbüs olmayacaq. Beləliklə, dünyada, regionda, qonşular arasında hörmət qazanmışıq və ölkəmizi gücləndirmişik. Bizimlə hesablaşmağa başlamışlar. Ona görə, bütün bu amillər öz rolunu oynadı".

## İnformasiya və təbliğat müharibəsində döyüş necə getdi?

Müharibənin ən vacib cəbhələrindən biri də bu idi. Azərbaycan son illərdə bu cəbhədə üstünlüyü ələ aldı. Prezident İlham Əliyev bu işə tarixi saxtakarlığı ifşa etməkdən başlandığını deyir: "Ermənistanın təqdim etdiyi saxta tarixi darmadağın etmişik, beynəlxalq tədbirlərdə dünya ictimaiyyətinə Kürəkçay sülh müqaviləsi haqqında kifayət qədər dolğun məlumat vermişik. Hər kəs gördü ki, erməni xalqı Qarabağ bölgəsində, sadəcə olaraq, son 200 il ərzində yaşayır, oraya köçürülüblər...

Xocalı həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün çox böyük səylər göstərdik- həm dövlət, həm Heydər Əliyev Fondu. Bu gün 13 ölkə Xocalı soyqırımını rəsmən soyqırımı kimi tanıyıb. Müharibə haqqında həqiqətləri, dağıdılmış şəhərlər, kəndlər haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırdıq....

YUNESKO, hansı ki, bu gün bizə irad tutmağa çalışır, guya biz erməni dini abidələrini burada qoruya bilməyəcəyik. Halbuki bu, yalandır. Azərbaycanda bütün dinlərin abidələri qorunur. Bir dəfə gedib o torpaqlara? Bir dəfə Şuşa məscidində olub? Zəngilanda dağıdılmış məsciddə olub? Ağdam məscidində olub? Orada ermənilər donuz, inək saxlayırdılar. İndi bizə irad tuturlar.

Qeyd edək ki, dövlət başçısı müharibə dövründə nüfuzlu beynəlxalq media orqanlarına onlarla müsahibə verdi və elə sanballı faktlar, məntiqi dəlillərlə düşməni ifşa etdi ki, bu informasiya və təbliğat müharibəsində çox böyük rol oynadı. Dünya ictimai rəyi Azərbaycanın haqq işinin tərəfində formalaşdırıldı. Bu işdə bütün xalqımız, xaricdəki diasporumuz da böyük rol oynadı və bu birlik informasiya müharibəsində öz sözünü dedi.

## Problemin hərbi yolla həlli əsas qələbəni təmin etdi

Bəzi beynəlxalq təşkilatların və böyük dövlətlərin rəsmi şəxslərinin dediyi "münaqişənin hərbi həll yoxdur" tezisi fiaskoya uğradı. Azərbaycan sübut etdi ki, sülh yolu baş tutmayanda hərbi yolla öz ərazi bütövlüyünü bərpa etməyə qadirdir.

Ali Baş Komandan bu barədə belə deyib: "Biz Ermənistan, onun havadarları, onun himayədarları və ermənipərəst qüvvələr qarşısına təkbaşına çıxmışdıq. Təkbaşına! Heç kimi bizi bizə sərf etməyən sülh müqaviləsi variantına məcbur edə bilmədi. Halbuki bir neçə dəfə belə cəhdlər oldu. Amma keçmədi, keçməyəcəkdi. Çünki güclü iradə var idi və var. Azərbaycan xalqının maraqları hər şeydən üstündür. Torpaqlarımızın işğaldan azad edilməsi ən başlıca vəzifə idi və biz bu vəzifəyə, bu hədəfə doğru inamla addımlayırdıq.

...Sentyabrın 27-də mən dedim yetər artıq, irəli! 44 gün ərzində Azərbaycan Ordusu Ermənistan ordusunu darmadağın etdi. Bizim qəhrəman əsgər və zabitlərimiz Azərbaycanın gücünü göstərdi. Düzgün planlaşdırılmış və həyata keçirilmiş əməliyyatlar sayəsində, texniki imkanlardan istifadə edərək, qəhrəman övladlarımızın qəhrəmanlığına, rəşadətinə söykənərək biz mümkün olmayanı etdik, düşməni məhv etdik, düşmən ağ bayraq qaldırdı, diz çökdü. 300-dən çox şəhər və kəndlərimizi işğaldan azad edəndən sonra, qədim Azərbaycan şəhəri, hamımız üçün doğma olan Şuşanı və ardınca bir çox kəndləri azad edəndən sonra düşmən tam təslim oldu, kapitulyasiya aktına imza atdı və işğalda olan digər torpaqlardan geri çəkilməyə məcbur oldu. Əgər kimsə Ermənistanda bu gün revanş hissi ilə yaşayırsa, böyük səhv edir. O 44 günlük müharibəni onlar heç vaxt unutmasınlar. Bundan sonra əgər kimsə Azərbaycan xalqını təhqir etməyə çalışsa, elə dərsini alacaq ki, o 44 günlük müharibə onun yanında yalan olacaq..."

Qarşıda bizi nə gözlədiyini isə yenə dövlət başçısının sözləri ilə vermək istəyirik: "Gələcəkdə bizi böyük işlər gözləyir, ölkəmiz üçün yeni dövr başlayır, quruculuq dövrü, inkişaf dövrü, torpaqlarımızın bərpası günləri bizi gözləyir. Bu dövr şərəfli dövr olacaqdır. Baxmayaraq ki, düşmən işğal etdiyi və artıq azad olunmuş torpaqlarda hər şeyi dağıdıb, biz bütün şəhərlərimizi bərpa edəcəyik, kəndlərimizi bərpa edəcəyik, Qarabağ bölgəsində cənnət yaradacağıq. Bizim xalqımız buna layiqdir. Bizim xalqımıza qələbə yaraşır və qələbə həmişə bizimlə olacaq!"

**Elçin Bayramlı**

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

SƏS

Son səhifə

7 yanvar

# Mesut Özil “Fənərbağça” ilə anlaşıb




***İngiltərənin “Arsenal” klubunun futbolçusu Mesut Özil karyerasını Türkiyədə davam etdirəcək. Türkiyə mətbuatının yazdığına görə, türk əsilli almaniyalı yarımmüdafiəçi “Fənərbağça” ilə anlaşıb. Futbolçu İstanbul klubu ilə 3,5 illik müqavilə imzalayacaq.***

**Qeyd edək ki, M.Özil “Arsenal”dan əvvəl Almaniyada “Şalke”, “Verder”in, İspaniyada isə “Real Madrid”in formasını geyinib.**

# Formula 1 Azərbaycan Qran-Prisinin başlama saatı dəyişdiriləcək?




***2018-ci ildə “Liberty Media” şirkəti Formula 1 yarışlarına saatın tamamında deyil, 10 dəqiqə qalmış start verilməsi barədə qərar qəbul etmişdi. Şirkət bu addımı televiziya kanallarına görə atdığını açıqlamışdı. “RaceFans” nəşri xəbər verir ki, cari mövsüm şirkət bu təcrübədən imtina edəcək. Start ilə bağlı Formula 1 rəhbərliyi ilə komanda nümayəndələri arasında keçiriləcək görüşdən sonra qərar qəbul olunacaq.***

Formula 1 üzrə dünya çempionatının Avropa mərhələlərinin tez başlaması təklif olunub. Belə ki, əgər ötən il Formula 1 İspaniya Qran-Prisi saat 17:30-da start götürmüşdüsə, bu il yarış saat 16:00-da başlayacaq. Qeyd edək ki, 2021-ci ildə Formula 1 Azərbaycan Qran-Prisi iyunun 6-da Bakı şəhər halqasında təşkil olunacaq.

# Diqqət: “Ev apteki”ndəki bitkilərin faydaları



Keçmişdə ev xanımlarının müxtəlif meyvə, yarpaq, kök qurularını yığdıqları bir boğçası olardı, həmin boğça bir növ də “ev apteki” rolu oynayardı. İndi də rayon və kəndlərdə belə boğçası olanlar var. Həmin boğçada sağlamlıq üçün vacib olan ən vacib bitkilər toplanır və ehtiyac yarananda həmin bitkilərlə müalicə prosedurları aparılır.

AZƏRTAC xəbər verir ki, bu barədə həkim-fitoterapevt Fizuli Hüseynov məlumat verib. Onun dediyinə görə, bu cür müalicənin heç bir ziyanlı təsiri olmur və orqanizmə çox müsbət təsir edir: “Məsələn, limon qabığı qurudulub saxlanılır, köpmə və həzmsizlik zamanı çay kimi dəmlənilib içilir. Heyva yarpağı dəmləməsi soyuqdəymə və öskürək zamanı faydalı təsir göstərir. Bundan başqa heyva tumları qurudulur və südlə dəmlənilərək içilir. Yarım çay qaşığı heyva tumu bir stəkan soyuq suya atılır, bir gün saxlanılır, öskürək zamanı yeməkdən əvvəl qəbul edilməsi mədə yarası, qastrit və öskürək zamanı faydalıdır. Şaftalı yarpağı kölgədə qurudulur, bərabər miqdarda gavalı yarpağının qurusu ilə qarışdırılaraq dəmlənilərək yeməkdən əvvəl içilməsi öd durğunluğuna faydalı təsir göstərir. Cır gilənar ağacının uc hissəsindəki zoğlarının yığılıb qurudulması qışda soyuqdəymə əleyhinə ən təsirli və tərlədici vasitə kimi təsir edir. Gilas saplağı yaxşı sidikqovucu kimi böyrəkləri və sidik yollarını iltihabdan təmizləyir. Cır gilasın tumlarının əzilərək toz formasına salınıb gündə 3 dəfə yarım çay qaşığı qəbul edilməsi ikinci növ şəkərli diabet xəstələrində şəkərin səviyyəsini aşağı salır. Qurudulmuş söyüd yarpağı dəmləməsi qanı durulur, iltihab əleyhinə təsir göstərir”.

Həkim-fitoterapevt daha sonra deyib: “Fındıq yarpağı dəmləməsi pozulmuş qan dövranını bərpa edir. Əl və ayaqlarda soyuqluq olanda həmin dəmləməyə bal əlavə edilərək gündə 3 dəfə 1 stəkan qəbul edilir. Onun qəbulu prostat böyüməsi zamanı da çox faydalıdır. Çiyələk saplaqları kölgədə qurudulandan sonra qaraciyər xəstəlikləri və öd mənşəli köpmələr zamanı dəmlənilərək içilir. Qozun arakəsmələri qəhvəüyüdəndə üyüdülür, onun 200 qramı yarım kiloqram bal ilə qarışdırılaraq məcun hazırlanır. Qoz ağacının cavan yarpaqları yığılıb qurudulur, vitamin çatışmazlığı zamanı dəmlənilərək bal əlavə edilərək içilir. Nar qabığının dəmləməsi ilə qarqara edən zaman ağız yaraları sağalır və diş əti bərkiyir. Əzgil saplağının dəmləməsi qanlı ishalı aradan qaldırır. Arterial təzyiq və şəkərli diabet zamanı hər gün zeytun yarpağı dəmləməsi içilməsi məsləhətdir”.

## Keçmiş məhkumdan “Makarov” tapançası götürülüb



Daxili işlər orqanlarının əməkdaşları əllərdə qanunsuz saxlanılan silah-sursatın aşkarlanaraq götürülməsi istiqamətində tədbirləri davam etdirirlər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Sabunçu Rayon Polis İdarəsinin 15-ci polis bölməsi əməkdaşları Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş O.Səlimovdan nömrəsi silinmiş “Makarov” markalı tapança, bir patron darağı və beş patron aşkarlayaraq götürüblər.

# “Mançester Siti” Messiyə görə De Brüynenin maaşını azaldır



“Mançester Siti” futbolçusu Kevin de Brüyne ilə yeni müqavilə imzalamağa hazırlaşır. Qol.az “The Atletic”ə istinadən xəbər verir ki, yeni sözləşməyə əsasən, 29 yaşlı yarımmüdafiəçi əvvəlkindən daha az maaş alacaq. Bu isə “Barselona”nın kapitanı Lionel Messinin mümkün transferi ilə əlaqədardır. “Şəhərlilər” 33 yaşlı argentinalının mövsümün sonunda keçidini reallaşdırmaq istədiyi üçün de Brüyneyə daha çox məvacib xərcləmək niyyətində deyil.

Qeyd edək ki, De Brüyne bu mövsüm Premyer Liqada 14 oyuna çıxaraq, 3 qol vurub və 8 qolun ötürməsini verib.

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**